

*Mən şeir yazmıram,*
*Köçürürəm varaqlara*
*Ürəyimdən keçənləri.*
*Ürəyimdən keçənləri*
*Bilmək istəsən -*
*Oxu, yazdığım şeirləri.*

QƏŞƏM ÇIRAQLI

# BİR İŞIQ UCUNDAN TUTUB GEDİRƏM

"ÇİNAR-ÇAP"
BAKI-2009

Redaktoru: **Hacı Rafiq Əliyev**
***Vahid Poeziya məclisinin sədri***

**QƏŞƏM ÇIRAQLI**
Ç51 **BİR İŞIQ UCUNDAN TUTUB GEDİRƏM.**
Bakı, **"ÇİNAR-ÇAP"** 2009, – 278 səh.

"Bir işıq ucundan tutub gedirəm" kitabı müəllifin oxucularla yeni görüşüdür.

Kitabda Vətənpərvərlik, insanpərvərlik şeirlərilə bərabər, ictimai-siyasi həyatımızda baş verən hadisələrə - super dövlətlərin ikili siyasətinə qarşı kəskin münasibət ifadə edən poetik nümunələr də öz əksini tapmışdır.

İnanırıq ki, "Bir işıq ucundan tutub gedirəm" şeirlər kitabı oxucular tərəfindən maraqla qarşılanacaq və o "İşıqdan tutub" gedən şairin hara getdiyinin fərqinə varan oxucular kitabdakı şeirlərlə tanışlıqdan xüsusi zövq alacaqlar.

Ç $\frac{4702060200}{122}$

© **"ÇİNAR-ÇAP"** , **2009**
© **"QƏŞƏM ÇIRAQLI"** , **2009**

## Bildim ki, bilmirəm

Gənc idim,
Elə bilirdim
Hər şeyi bilirəm,-
Bildiklərim bəsimdir.
Yaşadım, işlədim, gördüm.
Gördüm, görmədiklərim var.
Bildim, bilmədiklərim var:
Görmədiklərim gördüklərimdən,
Bilmədiklərim, bildiklərimdən
Daha çox olar.

***2008.***

# TƏXƏLLÜSÜ ŞEİRİNƏ İŞIQ SAÇIR...

...Qəşəm Çıraqlının əsərlərini oxuyarkən bu qənaətə gəlirsən. Onun poetik fikirləri sanki nura bələnib oxucuların qəlbinə süzülür, onların ruhuna, düşüncəsinə çıraq kimi işıq saçır, yeniləşməyə çağırır, bizim üçün ən adi görünən, çoxdan öyrəşdiyimiz həyat həqiqətlərini tamam başqa bucaq altında, başqa gözlə görməyə və qavramağa vadar edir. Bu nəticəyə nail olmaq hər bir şairin ən böyük arzusudur və bu arzu həyata keçəndə çox böyük uğura çevrilir, müəllifinə yaradıcılıq qüruru gətirir, oxucularına isə sonsuz sevinc və fərəh bəxş edir. Qəşəm Çıraqlının və onun oxucularının qismətinə bu qürur, iftixar, sevinc və fərəh qismətindən böyük bir pay düşür - desək, yanılmarıq. Buyurun:

Gənəşikli don dar olmaz.
Gənəşib geyinənlər
Rahat olar,
Bəxtiyar olmaz.

Bu misralar əsrlər boyu işlətdiyimiz, həm də birmənalı olaraq, elə həmin deyimin məzmununa, tələbinə uyğun şəkildə hərəkət etmək meylimizi ifadə edərək işlətdiyimiz məşhur atalar sözünün başqa, tamam yeni yozumunu təqdim etməklə kifayətlənmir. Şair burada ətalətə, əsarətə qarşı qətiyyətlə mübarizə aparmağa çağırır, hər kəsin həyatda öz yolunu tapmaq, bəzən və daha çox, daşlı-kəsəkli, əziyyətli, amma yeni, dünənə yox, sabaha aparan yolu tutmaq arzusunu ifadə edir. Bədii təfəkkürün təntənəsi, ədəbiyyatın, poeziyanın ümdə vəzifəsi budur.

Qəşəm Çıraqlı demək olar ki, bütün şeirlərində öz yolunu

seçir, öz yolunu tutur. Onun fikirləri yeni olduğu kimi, yazı tərzi, üslubu da yenidir. Klassik Azərbaycan ədəbiyyatının, poeziyamızın ənənəvi vəznlərindən fərqli olaraq, şair heca və sərbəst şeir vəznlərinin mayasından yoğrulmuş, müasir oxucunun daha asan, daha tez və daha dolğun əxz edə biləcəyi bir üslubda yazır. Onun poeziyasında qulaq qafiyələrindən geniş və məharətlə istifadə dair çoxlu misallar gətirmək olar. Şair oxucularının ürəyindən, fikrindən keçənləri öyrənir və sanki elə onların deyə biləcəyi tərzdə qələmə alır, misralara düzür, şeir yaradır. Özü də bunu bilir və bundan qürur hissi duyur. Bir şeirində oxucularına müraciətlə deyir:

Mən şeir yazmıram,
Köçürürəm varaqlara
Ürəyimdən keçənləri.
Ürəyimdən keçənləri
Bilmək istəsən -
Oxu, yazdığım şeirləri.

Müəllif heç də oxucularının təkcə şəxsi arzularını və məişət istəklərini ifadə etmir, yaradıcılığını bununla məhdudlaşdırmır. Şair eyni zamanda və daha çox, oxucularının, müasirlərinin vətəndaşlıq mövqeyini təyin etməkdə, bu mövqeyi hər şeydən uca tutmaqda onlara yardımçı olur, dəstək verir. Şeirlərində də bu mövqeyi ön plana çəkir, onu tərənnüm edir.

Oğul - oğuldu,
Şəkərdi, noğuldu.
Oğul doğuldu -
Vətənə bəlgə,
Vətənə dayaq,

Vətənə çəpər,
Vətənə sipər
Oldu.

Bu şeir Vətən övladlarının arzu və istəklərinin yalnız poetik ifadəsi deyil, hər şeydən əvvəl, onların qarşısına qoyulan, onların qarşısında duran tələbdir.

Ümumiyyətlə, Vətənin problemləri, xüsusən, xalqımızın ürəyinə, hissiyyatına zorla hopdurulmuş, sirayət etdirilmiş Qarabağ dərdi, bu problemin aradan qaldırılması yolları Qəşəm Çıraqlının yaradıcılığında nəzərəçarpacaq bir xətt təşkil edir:

Döyüşə hazır mərd igidlər
Döyüşsüz keçən hər günü
Dərd edib saçına düzür.
Elə ki əmr verildi,
Coşqun bir selə dönəcəklər,
Qarabağın qaranlığına
Sancılan süngüyə dönəcəklər,
Düşmənin başına ələnən
Mərmiyə dönəcəklər...
Ucalacaq bayrağımız orda -
Ağ günə qovuşan
Azad Qarabağda!

Bu gün ədəbiyyatımız, mədəniyyətimiz, mənəviyyatımız xalqımızın, dövlətimizin, dövlətçiliyimizin keşiyində durursa, onun nəzərləri əsasən bu istiqamətə yönəlməlidir və Qəşəm Çıraqlının, bu mövzuda yazdığı şeirlər, heç də həmişə arzu etdiyimiz və onun ilhamına layiq poetik səviyyədə olmasa belə, xalqı-

mızın Qarabağ yanğısına, Qarabağ təşnəsiçnə su səpir, Vətən torpağının ülviyyətini tərənnüm və vəsf edir.

Qəşəm Çıraqlı zəngin söz ehtiyatına malik bir şairdir. O, xalqın etnoqrafiyasını, adət-ənənəsini, folklorunu yaxşı bilir və əsərlərində bunlardan yerli-yataqlı, dürüst istifadə edir. Həm də, bildikləri ilə heç vaxt kifayətlənmir. Həmişə axtarışdadır. Və bir mənbəyi var - xalq!

Kənddə, şəhərdə,
Xeyirdə, şərdə,
Məclisdə, mərəkədə,
Danışmağa, deməyə
Yenə söz axtarıram,
Yeni söz axtarıram.

İnanırıq ki, Qəşəm Çıraqlının yaradıcılıq axtarışları səmərəli olacaq, o, daim yeniləşən çağdaş dünyamıza layiq, müasir oxucuların zövqünü oxşayan dərin poetik fikirlərlə zəngin, yüksək bədii-estetik dəyərlərə malik şeirlər yazacaq, əsərlər yaradacaqdır.

**Hacı Rafiq ƏLİYEV,**
*Vahid poeziya məclisinin sədri*

# TANRI YANIMIZDADIR

## ƏSGƏR, SƏNƏ YAXŞI YOL

Vətənin qolu, qanadı,
Dəmiri, poladı,
Əsgərlər,
İgid ərlər
Cərgə-cərgə addımlasın,
Üç rəngli bayrağımız,
Ön cərgədə,
Göylərdə
Dalğalansın.
Əsgər nəğmələrinin səsi,
Əsgər çəkmələrinin səsi,
Dalğa-dalğa ucalsın,
Yerə-göyə səs salsın,
Döyüş təbilləri çalınsın,
Damarlarda qan qaynasın.
Cəsarətlər, qeyrətlər oyansın.
Yolun düzdür, yolun doğru, -
ALLAH səni qorusun,
Sən də VƏTƏNİ qoru.
Əsgər, sənə yaxşı yol!
Əsgər, döyüşə hazır ol!
Vətən səni səsləyir,
Cəbhə səni gözləyir.

Azğın düşmənlər gəlir,
Quzğun düşmənlər gəlir,

Pozğun düşmənlər gəlir.
Burunları ovulmalıdır,
Vətəndən, sərhəddən
Qovulmalıdır.
Qoyma əl-qol atsın yağı,
Yay tək dartın, ox tək şığı.
Torpağa, bayrağa sığın,
Məqsədin aydındır, yolun doğru, -
ALLAH səni qorusun,
Sən də VƏTƏNİ qoru.
Əsgər, sənə yaxşı yol!
Əsgər, döyüşə hazır ol!

***2007.***

## TANRI YANIMIZDADIR

Gözlərin göylərdə gəzir,
Gözlərin Tanrı axtarır.
Aç gözünü yaxşı bax,
Tanrı elə yanımızdadır,
Canımızda, qanımızdadır.
Tanrı VƏTƏNDİR,
VƏTƏN torpağındadır.
Get, dəstamaz al, get -
Vətən torpağına səcdə et.
Başın torpağa əyilsin,
Yeddi bədən üzvün
Torpağa dəysin.
Allah göydə olsa da,
Allah göydə qalsa da,
Hökmünü torpağa verib,
Torpaq Allahla birdir,
Torpaq hər şeyə qadirdir.

***2007.***

## MƏNDƏN QOCA OLACAQ

Qələmim boy verir
Şeirlərimə,
Şeirlərim məndən
Uca olacaq.
Zaman tapdayıb
Keçəndə üstdən,
Şeirlərim məndən
Qoca olacaq.

***2009.***

# SÖZ KƏŞF EDİRƏM

Bax, bu qələm,
Bu da kağız,
İndi yazmağa
Hazıram.
Əvvəl söz kəşf
Edirəm,
Sonra şeir
Yazıram.

# İKİ KİTAB

Tanrım,
səndən aşağıda
Göy var, Yer var.
Göylə yer arasında
İki müqəddəs
kitab var:
Qurani-Kərim
Göy kitabı, -
Göylər tabanı,
Dədəm Qorqud, -
Yer kitabı, -
Türkün tabu-tavanı.
Qurani-Kərim
İslamçılığın,
Müsəlmançılığın
Əsasıdır, özülüdür,
Tanrının insanlara
Tapşırığıdır,
Sözüdür.
Dədəm Qorqud
Türkün tarixidir,
Türkün özüdür,
Türkün-türkə
Yazıb qoyduğu
Daş kitabəsidir,
Ürək sözüdür,
Daşlaşmış səsidir,
Nərəsi, nəğməsidir.

***2008.***

# DURNA QATARI

Şairin dövləti, varı,
Sevgisi, eşqi, vüqarı, -
Yazdığı şeirlər -
Durna qatarı.
Şairin əlindən,
Qələmindən süzülər,
Kağız üzərində düzülər,
Qanad açar,
Kağızdan uçar,
Azana dönər,
Avaza dönər,
Yüksələr,
Tanrıya çatar,
Ziyarət edər
Və yenə bir gün
Durna qatarında, -
Durna dimdiyində
Nəğməyə dönər, =
Yerə enər.

***2008.***

# BORC ALDIM

Göyü yerdən,
Yeri göydən
Araladım,
Aralıqda qaldım.
Yuva qurdum,
Yurd saldım.
Bir şair ömrünü,
Yaşatmaq üçün,
Bir insan ömrünü
Borc aldım.

***2009.***

## QALMAYACAQ

Ömür bitdi,
Qaldı yolda,
Yol da - yolda
qalmayacaq.
Səni də atıb gedəcək,
Zaman səndə qalmayacaq.
Düşərsə üstünə
Tanrıdan kölgə,
Zaman yedəyə
Ala bəlkə.

***2008.***

# AÇMASI - GÖYLƏRİNDİ

Elə ki öldün, -
Ruhun uçar göylərə.
O gündən,
O aydan,
O ildən
Zaman dalğa-dalğa
Keçər üstündən.
Həyat şirin olsa da,
Qanunları acıdır, -
Ölüm-ömrün bacxəracıdır.
Təbiətin qanunları
Dünya qədər köhnədi,
Mənası çox dərindi, -
Açması - göylərindi.

## HEYFİM GƏLİR

Dünyanı -
Dünya boyda zənginliyi,
Gözəlliyi, ənginliyi
görməyənləri, -
Görüb sevməyənləri
görəndə
Bu dünyaya
Heyfim gəlir.

***2008.***

# HƏR ŞEYDƏ TANRININ İZİ VAR

Hər yerdə,
Hər şeydə
Tanrının
İzi var.
Tanrının izini
Su yumaz,
Od yandırmaz.
Tanrı açan qapını
Bağlaya bilən
Bir cin, şeytan,
Bəndə tapılmaz.

***2009.***

## TANRI SEVGİSİLƏ GEDİRİK

Nizami, Füzuli
Səviyyəsinə qalxmasaq da,
Öz səviyyəmizdə,
Öz orbitimizdə
Var-gəl edirik.
Nəsimi yolunu
Axtara-axtara,
Tanrı sevgisinə
Yol gedirik.

***2008.***

## MƏN DƏ BELƏ TACİRƏM

Düz yol seçib,
düz gedirəm.
Dərin gedirəm,
Üz gedirəm,
Sözlü gedirəm,
sözsüz gedirəm,
Düz yol seçib,
düz gedirəm.
Bostanlara
daş atmıram,
Heç kəsi
aldatmıram.
Tanrıdan
nur alıb,
dürr satıram,
Mən də belə
tacirəm.
Sözlə könül açıram,
Sözlə bazar açmıram.

***2009.***

# NƏ YATMISAN

Nə yatmısan
fil qulağında,
Vətən oğlu, qalx ayağa.
Sən igidsən!
Özündən qabaq yarağın
getsin,
Başın üstə bayrağın,
getsin,
Düşmənə səsin, sorağın
yetsin.
Qarı düşmən
bu torpaqdan -
İlim-ilim itilsin.

***2007.***

# QAN PÜSKÜRƏN DAVAYA BAX

Tanrı dünyanı yaratdı,
Zamanı da ölçü vahidi,
Canlıları yaratdı, -
Canlıların ən gözəli,
İnsanları yaratdı.
Ən gözəl insanların,
Kimisi oxudu alim oldu,
Alimlərin kimisi insanlara,
İnsanlığa zalım oldu, -
Ölüm silahı icad etdi, -
İnsan-insana qənim oldu.
Ey insan oğlu, ayağa qalx,
Diqqətlə, insafla, mürvətlə
Yer üzündən yüksələn
Vaya bax, haraya bax.
Əfqanıstan -
Fələstin, QARABAĞ -
Yerdəki torpağa bax,
Göydəki havaya bax.
Bölgələrdə, ölkələrdə
Qan püskürən,
Uzun sürən davaya bax!
Qorx, çəkin
ALLAHA bax.

***2008.***

# YENİ ŞAİRLƏR DOĞULUR

Söz var - söz doğur,
Söz var - söz boğur.
Mən sözdən qaçıram,
Söz
Qol-qanad açır,
Mənə doğru uçur, qaçır.
Elə bir sədd,
Elə bir bənd
Yoxdur ki,
Arxasında gizlənim.
Söz dirənib gözümə,
Söz düşüb izimə
Gecə-gündüz
İzləyir məni.
Hər yerdə,
Hər zaman
Gözləyir məni.
Söz var - söz doğur,
Yeni sözlər doğulur,
Yeni sözlərdən də
Yeni-yeni
Şairlər doğulur.

***2008.***

# GÜLLƏ DƏYMƏZ, QILINC KƏSMƏZ SÖZÜM VAR

Güllə dəyməz,
qılınc kəsməz
dilim var.
Dilimin yaraşığı,
Dilimin ovxarı -
Sözüm var.
Sözlərimi deməyə,
Ürəyimdə cəsarət,
Ürəyimdə dözüm var.
Silahlanmışam,
Zirehlənmişəm
Güllə dəyməz,
Qılınc kəsməz,
Suda batmaz,
Pas atmaz
Dil ilə
Bu dilə məxsus
Söz ilə!

***2008.***

# ORDUMUZ QƏLƏBƏ ÇALACAQ ONDA

Hələlik,
Qaçqın da, köçkün də,
Dərdi, qəmi unudub,
Zamanın nəbzini tutub,
Hərəsi bir cür ömür sürür,
Hərəsi bir cür gün görür.
Hərəsi dərdə bir cür dözür.
Döyüşə hazır mərd igidlər
Döyüşsüz keçən hər günü,
Döyüşsüz keçən hər ili
Dərd edib saçına düzür.
Səbrinə, qeyrətinə sığınır,
Yay təki açılır, yığılır,
Ürəyinə, qəzəbinə yıxılıb,
Dözürlər-dözməzliyə,
Zamanda məqam gözləyib,
Ürəkdə intiqam bəsləyib
Dözürlər, -
Elə ki, əmr verildi.
Coşqun bir selə dönəcəklər.
Qarabağın qaranlığına,
Sancılan süngüyə dönəcəklər,
Düşmənin başına ələnən

Mərmiyə dönəcəklər.
Düşməni məhv edəcəklər,
Düşmən məğlub olacaq onda,
Ordumuz qələbə çalacaq onda,
Ucalacaq bayrağımız orda -
Ağ günə qovuşan
Azad Qarabağda!

***2008.***

## BİZƏ TƏN ÇIXAR

Tanrı elə yaradıb, -
Bizdən neçə mən çıxar.
Bizdən çıxıb gedənlər,
Sonda - sonluq olaraq,
Ruhən bizə tən çıxar.

***2008.***

# AĞSAQQAL ŞEİRLƏR YAZIRAM

Bağçaya, məktəbə gedən,
Yelləncəkdə yellənən,
Dəlilik, dəcəllik edən
Şeirlər yazmıram, -
Ağbirçək, ağsaqqal
Şeirlər yazıram.

***2007.***

# MƏN DƏ ELƏ MƏKTƏBLİYƏM

Yetmiş yaşındayam,
Günləri, ayları
saymaqdayam.
Yolları yormuşam,
Yol ayrıcında
durmuşam.
Yetmiş yaşındayam, -
Bir az sevincdəyəm,
Bir az qəmdəyəm,
Yarı yerdəyəm,
Yarı göydəyəm.
Yarı insan,
Yarı mələk kimiyəm.
Yetmiş yaşım var,
Yaşımla fəxr edirəm.
Şeir-sənət yollarında
Yorulmadan yol gedən, -
"Şagirdəm" - "məktəbliyəm", -
Hər gün "dərsə gedirəm".
Hər gün
Oxuyuram, öyrənirəm, -
Mən də elə, "məktəbliyəm".
Mən də belə məktəbliyəm.

***2007.***

# TANRIYA BAXIR

Hər şey,
Yuxarıdan aşağı düşür,
Yuxarıdan aşağı axır.
Hər şey -
Yarananlar, yaradılanlar,
Torpaqda olanlar
Yerə səcdə edib,
qalxır
aşağıdan yuxarı
Tanrıya baxır.

***2007.***

# ATSIZ TÜRK - TÜRK OLA BİLMƏZ

At türkün qolu-qanadı,
At türkün cəsarəti, adı.
At türkün isməti, adı,
At - qeyrət rəmzidir,
At - qüdrət rəmzidir.
At - hörmət rəmzidir.
Elə ki, türk atdan düşdü -
Qeyrətdən, ruhdan düşdü.
Qılıncdan kənarda durdu.
Sahibli tulalar, sahibli itlər
Həddini aşdı, üstünə hürdü,
Qudurdu, quduzlaşdı,
Türkün canına,
Torpağına daraşdı.
Tarixlər boyu,
Türkün türk adı, soyu,
Türkün türk həyatında,
Türkçülük həyatında
At silaha,
Silah ata döndü.
Türk cəsarətli, qüdrətli oldu,
At türkün qanadı oldu.
Atsız türkün sındı qolu, qanadı,
Atsız türklər - türk olmadı,
Türklər oldu - görk olmadı.

***2007.***

# GÖRƏN BİZƏ NƏ QALDI

Boylanırıq uzaqdan,
İllərin arxasından, -
Əsrlərin arxasından,
Babamız Adəmdən bəri,
İnsanları aldadan,
Havasına oynadan,
Ağ qoçla qara qoçdan, -
Görən bizə nə qaldı?
Görən bizdən nə qaldı?
Bu yaraşıqlı dünyada,
Gözəl, işıqlı dünyada, -
Canımızı alan dünyadan,
Bizi yola salıb,
Özü qalan dünyadan
Görən bizə nə qaldı?
Ruzumuz daş içində,
Ruhumuz daş içində,
Gözlərimiz - yaş içində,
Dolandıq təlaş içində,
Qaçqınların köçündə.
Yağmalanmış yurdumuzdan
Görən bizə nə qaldı?
Talanmış,
Yandırılmış
Yurdumuzda
Görən bizdən nə qaldı?

***2008.***

# AXI YAZ GƏLİB

Dimdiyi səyrişən,
Səsi titrəyən quşlar
Budaqdan-budağa qonur,
Ağacdan-ağaca uçur, -
Oxuyur, şənlənir.
Budaqları çiçəklərlə
bəzənmiş ağaclar,
Qollarını göyə, -
Tanrıya açıb.
Torpağın yuxusu qaçıb,
Torpaqdan çörək ətri gəlir, -
Zəmilər sevincdən
uğunur.
Axı yaz gəlib.

***2008.***

## QIFILLI SANDIQ

Hər insanın qəlbi,
Qıfıllı bir sandıqdır, -
Canı, ruhu içindədir,
Bu sandığın açarı, -
İnsanın öz dilindədir.

***2008.***

## ŞAİR YENİDƏN DOĞULUR
## İMADƏDDİN NƏSİMİYƏ

Şair ömründə
çoxlu qalmaqal olur.
Bir dövrdə şairin
Boynu vurdurulur, -
Dərisi soydurulur.
Digər dövrdə isə
Şairə heykəl qoyulur,
Şair yenidən
dünyaya gəlir,
Şair, yenidən doğulur.

***2008.***

## HƏR KƏSİN ÖZÜNƏ BƏSDİR

Hər kəsin dərdi
Özünə bəsdi, -
Heç kəsə
borc verməz,
Heç kəsdən
Borc almaz.
İnsan olan
Dərdsiz olmaz.

***2008.***

# VULKAN KİMİDİR

Şair qəlbi də,
Vulkan kimidir.
Şair susur, susur, -
Qəlbindən qəflətən
Vulkan kimi
Şeir püskürür, -
Rahatlıq, dinclik
Şeirə haram olur.
Vulkan susur,
Şeir yazılmır,
Şair qəlbi
aram olur.
Yenə də,
Dinclik, rahatlıq
Şairə haram olur.
Dincliyi dincə
Qoymayan şair,
Misra boyu,
Misra-misra
Ömür sürür.
Misraların
İçində ölür.

***2008.***

## EVİMİZİ, DİLİMİZİ BƏZƏMİŞDİR

Açdım Füzulinin
şeir kitabını, -
Kitab evimizə
Qonaq gəlmişdir, -
Kiçicik bir şeirdə
Böyük sözlər
Qönçələnmişdir.
Qonçaların rayihəsi
Evimizə səpələnmişdir.
Şeir
Evimizi də,
Dilimizi də
Bəzəmişdir.

***2008.***

# KÖRPƏ QUŞ KİMİYƏM

Dünyanın ovcunda,
Körpəcə -
Quş kimiyəm, -
Hələ məni yedirib,
İçirəcəkdir.
Əcəlim gələndə, -
Məni ovcundan salıb,
İtirəcəkdir.
Cismimi torpağa,
Ruhumu göylərə
köçürəcəkdir.

***2009.***

## DAŞIYIRIQ PASPORT YERİNƏ

Ömrümüz pasportlaşdı,
kodlaşdı,
Toplandı şəxsiyyət
vəsiqəsinə.
İndi
Şəxsiyyət vəsiqəsini
Daşıyırıq pasport
yerinə

# ALLAH YAXŞI BİLİR

Allah çox yaxşı bilir, -
Kimə, nəyi, nə qədər
yükləyəcək,
Kim, nəyi, necə
Götürəcək.

***2008.***

# YOLLAR-YOL VERİN

Düşdüm yolun ağına,
Baxmadım soluna, sağına, -
Düşmüşəm sorağına,
Gedirəm yar yanına,
Yalvaram, düşəm ayağına, -
Yollar - yol verin, yol verin.
Yollar məni sevindirin.

***

Yollar, sağ ol deyin,
Yollar, yaxşı yol deyin,
Sağ-salamat ol deyin,
Məni qovuşdurun yara,
Son qoyun həsrətə,
Son qoyun intizara.
Yollar yolda sağ olsun,
Yeri, Göyü var olsun,
Yeni-yeni yollar doğulsun.
Düşmüşəm sorağına,
Gedirəm yar yanına,
Yalvaram, düşəm ayağına, -
Yollar, - yol verin, yol verin,
Yollar məni sevindirin.

## YOLLAR ÇİYNİNDƏ ÖTÜRÜR

Dünyaya insanlar gəlir,
Dünyadan insanlar gedir, -
İnsan da, Əzrail də
Hər gün yol üstdədir.
Bu yollarda
İnsanlar Tanrıdan
Aman diləyir,
Əzrail məqam gözləyir.
İnsanların başına
nə gəlir, -
Elə yollarda gəlir.
İnsanlar yenə
yolları yoldaş seçir, -
Ömrü-günü yollarda keçir.
Yollar dünyanı öyrənir,
Yollar zamanı öyrənir, -
Anı-zamanda görür, -
Zamanı-anda görür, -
Öyrənir-görür-götürür.
İnsanları o dünyaya da
Yollar çiynində ötürür.

***2009.***

## DOLAŞIQ NAĞIL OLDU

Olmayan dəryada,
Olmayan gəmim
qərq oldu,
Olmayan saçımı,
Olmayan darağım
yoldu, -
Darağım çox
Paxıl oldu.
Nə dedim,
Nə danışdım
Dolaşıq,
Qarmaqarışıq
Nağıl oldu.

***2009.***

## ARAM-ARAM YAĞIRAM

Mən gurultusuz,
uğultusuz
Payız yağışıyam.
Yavaş-yavaş,
Ağır-ağır,
Aram-aram,
İnsanların
Arzularına,
İstəklərinə, -
Sevinclərinə,
kədərlərinə yağıram.
Bu dünyanın
hər yerinə
yağıram.

***2009.***

## SÖZ TEZ ÇATIR

İnsan
üzündə ilahi nur,
Qəlbində ilahi səs,
Gəzir, dolanır.
İnsanın içində
Ulu Tanrıya
Böyük sevgi ilə
Böyük qorxu
Baş-başa yatır,
Namaz vaxtı
Dualara çevrilən söz,
Namaz qılandan qabaq,
Namaz qılandan tez
Tanrıya çatır.

***2008.***

# GƏNƏŞİKLİ DON GEN OLAR

Gənəşikli don dar olmaz,
Gənəşib geyənlər
Rahat olar,
Bəxtiyar olmaz.
Mən gənəşmirəm,
don tikirəm,
Nə tikirəm, bilirəm,
Tikdiyimi geyirəm.
Tikdiyim ürəyimcədir,
Zövqümə uyğun olur.
Gənəşib tikdirdiyim
Dar olmaz, gen olar.
Gənəşib tikdiyim,
Gənəşib tikdirdiyim
Özgə ürəyincə olar,
Mənə yox,
Gənəşdiyimə yaraşar.
Gənəşikli don dar olmaz,
Gənəşərək geyənlər,
Sevinər, bəxtiyar olmaz.

***2007.***

# XAHİŞƏ, MİNNƏTƏ BAXMAZ

Ruh,
Yarpaq təki
qopar köksündən,
Zaman dalğa-dalğa
keçər üstündən.
Təbiətin, həyatın
qanunları var:
Sərt, köhnə, ulu
Təzadlarla dolu, -
Xahişə, minnətə baxmaz,
Hörmətə, şöhrətə baxmaz.
Az yaşadın-yetər,
Çox yaşadın-yetər.
Məhəbbətdən
Doğulan ömür
Ölümlə bitər.

***2009.***

## HƏYAT MƏXFİ OYUNDU

Həyata gəlmək, -
Yaşamaq, ölmək, -
Məxfi oyundu.
Kimi gəldi, uddu,
Kimi gəldi, uduzdu.

***2008.***

# BÜRCLƏRİN ÜSTÜNDƏDİR TANRININ ƏLİ

Bürclərin üstündədir,
Tanrının əli,
Tanrı bürcləri
İdarə edir, -
Bürclər də
Bizləri.

***2008.***

# QOBUSTANDA

Qayalar baş-başadır,
Tək-tək, qoşa-qoşadır,
Hər biri bir tamaşadır.
Axtarın qoynunu qayaların, -
Qoynunda sirr yaşadıvr.

***

Qayaların arasında
Əvvəl insan doğuldu,
İnsanda inam doğuldu,
Söz doğuldu, ilham doğuldu,
Od doğuldu, ocaq doğuldu,
Xəncər doğuldu, bıçaq doğuldu,
Ər doğuldu, - nər doğuldu,
Nər doğuldu - qoçaq doğuldu.
İnsan dönüb qaya oldu,
İnsan donub qaya oldu,
Qayaların arasında.

# SÖZ TAPA BİLMİRƏM

Dodaqda gül açan,
Ətir qoxuyan,
İşıq saçan
Söz deyib -
Səni əzizləmək,
Səni sevmək
İstəyirəm.
Sevginə,
Zövqünə layiq
Söz tapa bilmirəm.

***2007.***

## ƏLİMDƏN ASIRAM

Söz dalınca qaçmıram,
Dilimdən söz açıram, -
Sözə möhür basıram.
Qələm söz yazmayanda,
Söz yazmayan qələmi,
Sağ əlimdən asıram.

***2007.***

## ŞEİR YAZANDA

Qanadım yoxdur,
qanadlanıram.
Atım yoxdur,
Atlanıram,
Şeir yazanda.
Hər zəhmətə
qatlanıram,
şeir yazanda.

***2008.***

# BAKI AXŞAMLARINDA

Gözəldir, təmizdir
Bakı küçələri.
Mənə çox əzizdir
Bakı küçələri.
İşıqları gur yanır,
Küçələr işıqlanır,
Şəhər nura boyanır, -
Bakı axşamlarında.

***

Evlərdən-evlərə
İşıqlar düşür,
Evlərdən ürəklərə
İşıqlar düşür, -
İşıqlar - işıqlı
Nəğmə oxuyur.
Arı pətəyinə
Bənzəyir şəhər,
Şəhər çiçək qoxuyur,
Şəhər bal qoxuyur.
İşıqlar küçələrə, -
İşıq toxuyur,
Yaraşıq toxuyur
Bakı axşamlarında.

***2008.***

# BAKI GÖYDƏLƏNLƏRİ

Hər səhər tezdən
Bakı göydələnləri
Çiynində qaldırır
Göyün ətəyini.
Ulduzlarla
dəstamaz alır,
Sübh namazını
göylərdə qılır.
Sonra işə gedir,
İş adamları.
Sonra başlayır,
Səhər qayğıları,
Şəhər qayğıları.
Hər gün,
Hər səhər tezdən
Göydələnlər bitən
yerdən
Günəşi salamlayır
Bakı şəhəri,
Bakı sakinləri.

***2009.***

## SÖZ QAZANI ASMIŞAM

Başımda qazan asmışam,-
Söz töküb, söz qaynadıram.
Bişənləri kağızlara köçürürəm
Zəhmətim getmir hədər.
Qazanım hikmətlidir,
Qazanım bərəkətlidir, -
Hamıya pay düşər,
Ürəyi istəyən qədər.

***2007.***

# DƏRD CÜCƏRİR

Uşaq doğulanda -
Öncə
Dərdi cücərir.
Dərd də uşaqla,
Dünyaya gəlir.
Uşaq böyüyür -
YekəlirE
Ölənə qədər
Dərd əkir,
Qəm becərir.

***2009.***

# ÖZÜ GÖZƏ GÖRÜNMƏZ

Allah böyükdür,
ədalətlidir.
Yerin üstündə,
Göyün altında
Hər nə var,
Hamsını bilir.
Heç zaman, heç yerdə
Səhv edə bilməz.
Hər şeyi eşidir,
Hər şeyi görür,
Ancaq danışmır,
Ancaq dinmir,
Özü də gözə görünmür.
Günahkarın cəzasını
ayağına,
ayağını yorğanına
görə yazar.
Qeybət qıranın,
Şər danışanın,
Böhtan atanın
Şər, böhtan püskürən
Dodağına görə yazar.
Qoyunu-keçi ayağından,
Keçini-qoyun ayağından
Asmağa qoymaz.
Haqqı - nahaqqa verməz,
Nahaqqa "haqdır" deməz,
Ancaq geci-tezi var.

***2008.***

# DÜNYA QALMALI YERDİ

Desələr, bu dünya
Qalmalı yer deyil, -
Qoy desinlər, inanma,
Hər deyilənə aldanma:
Dünya çox gözəldi,
Dünya, səfalı yerdi,
Dünya, qalmalı yerdi.
Yığıb gözəl nemətləri.
Gözəl süfrə açarsan,
Həyatdan kam alarsan.
Lakin,
Görəndə dönük üzləri,
Görəndə sönük gözləri, -
ədalətsizlikləri,
Sönər yaşamaq eşqi,
Ölümə qucaq açarsan,
Arxaya da baxmadan,
Bu dünyadan qaçarsan.

***2008.***

# DÜNYA-DÜNYALIĞINDA QALACAQ

İstəyirsən
Min cürə don geydir,
İstəyirsən
Min cürə don soyundur,
Hər bahar
Yaşıl don geyəcək,
Hər payız
Sarı köynək soyunacaq.
Gah yaşıl köynəkdə,
Gah sarı köynəkdə, -
Dünya əzizlənəcək,
Dünya nazlanacaq,
Hadisələr,
Gələnlər, gedənlər
çox olacaq, -
Ancaq,
Dünya
dünyalığında
qalacaq.

***2009.***

## SÖZ YÜKSƏKDƏ DURUR

Ürəyim qan yerinə
Başıma söz vurur.
Söz Tanrıdan aşağıda,
Məndən yüksəkdə durur.

***2007.***

## NƏĞMƏ
## KÖNLÜM SƏNİ İSTƏYİR

Səni könlüm istəyir,
Gəzib tapa bilmirəm,
Gəlib tapa bilmirəm.
Sən atlı, mən piyada,
Məni salmısan oda, -
Artıb qəmim, kədərim, -
Mənim nazlı dilbərim.

***

Bir azca sən yavaş get,
Mən sürəti artırım.
Bir nöqtədə görüşək,
Öz sözümü çatdırım, -
Səndən də bir söz dərim
Mənim nazlı dilbərim.

***

Tənhalıq çox pis şeydi,
Kədər qəddimi əydi.
Sevgi içməli meydi,
Gəl, birlikdə içəlim,
Ya sən gəl, ya mən gəlim,
Mənim nazlı dilbərim.

***

Sevgi- cütlüyün səsi,
Sevgi könül nəğməsi, -
Sevgi Tanrı töhfəsi.
Ay canım, ciyərim,
Sən könül ver, mən gəlim,
Mənim nazlı dilbərim.

## VAXTINDA DOĞULMUŞAM

Mən,
Nə tələsmişəm,
Nə gecikmişəm -
Tələsən, gecikən
olmamışam.
Allahın izniylə,
Vaxtında doğulmuşam.

***2009.***

# RUHUMU ZAMANA TAPŞIRDIM ZAMANI ALLAHA

Vaxtında,
qədrini bilmədim
bu ömrün, -
Bu ömrü çapdım, taladım, -
Yerli, yersiz
Sağa, sola payladım,
Bu ömür tükənir daha.
Hər şey zamana bağlıdır,
Zaman ALLAHA.

***

Ruhlanıb cavanlıqdan,
Sıyrıldım qılınc təki qından,
Atıldım ox təki yaydan.
Uçdum gah arana, gah dağa,
Amma batmadım günaha,
Günahsız yol getdim
üzü sabaha.
Ruhumu zamana tapşırdım,
Zamanı ALLAHA.

***

Ömrümü rahat qoymadım,
Günəşdən doymadım,
Aydan doymadım,
Bulaqdan doymadım,
Çaydan doymadım
Qibtəyə, hiyləyə uymadım,
Felə-fitnəyə uymadım,
Düşdüm taleyimə
yazılmış yola,
Bu yoldan kənara
çıxmadım daha,
Qurşandım  şeir yazmağa,
Nə yazdım - zamana tapşırdım
Zamanı ALLAHA.

***2008.***

## DÜNYAYA GÜLÜB GEDİRƏM

Dünyaya balaca gəlmişdim,
Dünyadan böyük gedirəm.
Dünyaya ölü gəlmişdim,
Dünyadan diri gedirəm.
Gələndə məni ağladan dünya,
Gedəndə -
Sənə gülüb gedirəm.

***2008.***

## ÖZ GÖZÜMDƏN DÜŞÜRƏM

Haçan ki,
Xəbislərlə,
nadanlarla
görüşürəm, -
Özüm-öz gözümdən
düşürəm.

***2009.***

# ÖLMƏK İSTƏMİR

Yaşamaq ucuzdur,
Ölmək baha, -
Heç kəs
Ölmək istəmir
daha.

***2007.***

# HƏQİQƏT ARXİV SƏNƏDİDİR

Həqiqət arxiv sənədi kimidir,
Hamıya açıb göstərmək olmaz.
Həqiqət-həqiqət olduğu üçün,
Düzə-düz qələm qoyduğu üçün,
Arxivdə qorunur, saxlanılır.
Həqiqət ona görə həqiqətdir ki,
Örtülər-açılmaz qapıları.
Həqiqət açılan-açıqlanan gün, -
Dava düşə bilər, qan tökülə bilər.
Həqiqət susanda, susdurulanda,
Yalan-palan meydan sulayar.
Hər kəsin içində
Deyilə bilməyən
Bir həqiqət olur. -
Özünü didir, saçını yolur,
İçində, köçündə yol gedir, -
Azad olmaq vaxtını güdür.
Zaman da, insanlar da
elə dəyişib
İndi hər hörmətin, qayğının
Kölgəsində qıvrılıb,
Min hiylə yatır.
İnsan uydurduğu yalanların
İçində boğulur, itir-batır.

***2008.***

# DÜNYA NURA BOYANDI

Çaylar, dənizlər -
balıqlarındı,
Söz - danışan
dodaqlarındı.
Həya - həyalı
yanaqlarındı.
İnsan torpaqdan
yarandı,
Ayaq üstdə durdu, -
dayandı.
Elə ki, gülüş
dodaqda yandı,
Dünya nura
boyandı.
Kimə lazımsa
mənəvi kömək,
Onu sevgiyə,
gülüşlərə
qərq edək.

***2008.***

# QORUYAQ BARI

Gedənlər-getdi,
Yola saldı
göz yaşları.
Gələnləri, qalanları
Qoruyaq barı.

# QOÇLARA BƏNZƏR ZARAFAT

Savadlı arvadla,
Savadlı ər,
Dar körpüdə qarşılaşan
Qoçlara bənzər.

***2009.***

# NAXƏLƏF QƏLƏM

Həmdəm bilib,
Məhrəm bilib,
Bir gecə,
Xəlvətcə
Dərdimi, sirrimi
Dedim qələmə, -
Qələm dərdimi, sirrimi
Yazdı, - yaydı aləmə.

***2008.***

## ƏLLƏRİM KÖMƏYƏ GƏLİR

Burnuma xörək qoxusu dəydi,
Yatmış iştaham oyandı,
Gözlərim mətbəxə boylandı,
Dişlərim çörəyə dartındı,
Ağzım yeməyə dartındı, -
Əllərim köməyə gəldi.

***2008.***

# GÜNAHLARI DAŞLAYIM

Bilmirəm nə edim,
Nədən başlayım, -
Hardasa baş vermiş
Günahlarımı
Günahkar şeytan kimi
daşlayım, -
Günahlara xətt çəkim,
Günahsız bir ömür,
Yaşamağa başlayım.

***2008.***

# ZAMAN DALĞA-DALĞA KEÇƏR ÜSTÜNDƏN

Ruhun,
Yarpaq təki
Qopar köksündən,
Zaman dalğa-dalğa
Keçər üstündən.
Həyatın qanunları var, -
Köhnəlməyən, təzə-tər.
Məhəbbətdən
doğulan həyat,
İstəməsən də
ölümlə bitər.

***2008.***

# BU SÖZÜ DEMƏ

Mənə pensioner demə,
Bu söz
Qəlbimə dəyir,
Qəddimi əyir.
Mən pensioner
Olsam da,
Xəyalım göylərdən
Ulduz dərir, -
Əlim, qələmim
Gecə-gündüz
işləyir.

***2008.***

## ENİŞƏ AXAR

İnsanın suya
Bənzəyişi var,
Yoxuşu sevməz,
Enişə axar.

***2008.***

# BÖYÜK YOLUN - YOLAĞASI

Doğulan,
Yumurtadan çıxan,
Quruda, suda yaşayan
Bütün canlılar -
Harda var,
Doğulan kimi.
Yumurtadan çıxan kimi,
İlk tanıdığı, bildiyi
yol
Ağzının,
Boğazının yoludur.
İlk öncə
Ağzının, boğazının
yolunu bilir.
Əmmək, yemək istəyir.
Yeməyin adını bilmir,
Amma
Əmmək, yemək istəyir.
Yeməyə, əmməyə
Kömək istəyir,
Onda ki,
Ordakı
Yeməyin, əmməyin
Yolunu da bilir,
dadını da bilir.
Özü-özünün ağasıdır.
Bu yol - böyük yolun
yolağasıdır.

***2008.***

## ZƏRİF, ZƏİF=GÜCLÜLƏR

Qadınlar, -
Zəif, zərif bu insanlar,
Məqamı gələndə, -
İgid kişini, ər kişini
Muma döndərər -
Çəngələyər
İpəyə döndərər-geyər,
Küləyə döndərər- əsdirər,
Axırda özünü sevdirər.
İgid kişi, ər kişi
Div gövdəli nər kişi, -
Məqamı gələndə,
Zəif, zərif
Qadınların önündə,
İpək olar, uşaq olar,
Ürəyi kövrək,
Ürəyi yumşaq olar.
Qadınlar kişiləri
Uşaq kimi aldadar,
Təlxək kimi oynadar,
Baş əydirər, diz çökdürər,
Yalvardar, dil tökdürər.
Hünərin var, baş əymə,
Hünərin var diz çökmə, -

Tabe olma bu hökmə.
Güc toplayıb ayağa qalx,
Özünə də, ona da bax
Zərif, zəif qadındakı
Gücə bax, qüdrətə bax,
Hökmə, cəsarətə bax!
Sənə baş əydirər,
diz çökdürər,
Əlindən, ayağından öpdürər.
Qadın sevsə əgər,
Kişi önündə
Gülə, çiçəyə dönər,
Duza, çörəyə dönər.

***2007.***

***MƏN GÖZƏL BİR SÜFRƏ AÇDIM,***
***SÖZDƏN ƏHLİ-ALƏMƏ...***

***Məhəmməd Fizuli***

## BEŞ YÜZ İL YOL GƏLƏN İŞIQ

Beş yüz ildir, sözdən süfrə açıb,
Süfrəsindən dünyamıza nur ələyib,
İşıq saçıb, dahi Füzuli.
Könüllərə qapı açıb,
Söz qapısı
Dahi Füzuli.
Düz beş yüz ildir
İnsan oğlu nəsil-nəsil pay götürür,
İşıq payı, nur payı
Füzuli süfrəsindən.
Düz beş yüz ildir
Füzulinin söz süfrəsindən
Başlayıb yol gələn işıq
Ana vətənimdə yoluma düşüb,
Taleyimlə görüşüb
Beş yüz il yol gələn işıq.
Beş yüz il yol gələn işıq,
Yola çıxmışam, yoldayam hələ.
İşığına yol gəlirəm.
Səndən pay götürməyə,
Pay almağa gəlirəm.
Çıxmışam yola,
Səni qarşılamağa gəlirəm
Beş yüz il yol gələn işıq,
Sənə qovuşmağa gəlirəm.

## QIRILDIM - DÜŞMƏDİM

Daxili bir fırtınadan,
Barlı budaq kimi
Qırıldım - düşmədim, -
Sən mənə - məndən
Dayaq vurub qaldırdın, -
Kökümə bağlayıb,
Sağaltdın, ALLAH.

***

Həyatın dar günündə,
Tək qalanda, düşmən önündə,
Əlimdən tutub,
Dadıma çatdın, -
Məni yaşatdın, ALLAH.

***

Sənsiz getsəm bir yana,
Məni çəkdin imtahana.
Yolumu çətinə saldın,
Sonra qayğıma qaldın.
Qayğılarda boğulanda,
Mənə əl tutdun,
İp atdın, ALLAH.

***

Düzlük, tarazlıq Səndən keçir,
İşıq, qaranlıq Səndən keçir,
Düz olanlar Səndən keçir,
Düz yollar Səndən keçir.
Mən də etdim düz seçim,
İzin ver, Səndən keçim,
SƏNİ deyib gəlmişəm,
Sevgin dadıma yetsin.
Yolum önündə bitsin,
SƏNƏ olan sevgini,
Özün yaratdın, ALLAH.

***2008.***

# HEÇ NƏ GİZLİ QALMIR

Dünyada
Heç nə gizli qalmır,
Bir az zamana ehtiyac, -
Bir az geci-tezi var,
Bir az uzanır yollar,
Uzanır uzansın, nə olar.
Zaman çarxı fırlanar,
Zaman çarxı dolanar,
Çarxlar geri fırlanar,
Sirlərin-sirri açılar.
Hər şey qaydaya düşər,
Hər şey aşkarda olar,
Ədalət qələbə çalar,
Tarix də yenidən yazılar.

***2008.***

## BAX - BAXIŞLARINA

Sən baxdın,
baxdın, bilmədin -
Nə dedi baxışların?
Bilmək istəsən,
Mənim gözlərimlə bax -
Baxışlarına.
Özün də vurulacaqsan
Öz baxışlarına.

***2007.***

# EŞİTDİYİN - EŞİTDİYİN KİMİ QALSIN

Qoy eşitdiyin -
Eşitdiyin kimi
qalsın,
Eşitdiyin yerdə.
Eşitdiyini danışsan -
Hər yerdə,
Düşərsən dərdə.

# FİKİR DAĞDAN AĞIR GƏLƏR

Tərəzinin bir gözünə,
dahi fikir, -
Digər gözünə
Dağ qoya bilsən,
Bir möcüzə
baş verər, -
Fikir dağdan
ağır gələr.

***2008.***

## XƏBƏR APARMAMAQ ÜÇÜN

Bu dünyaya,
Ağlaya-ağlaya,
Çığıra-çığıra gəlirik.
Dünya nədir bilmədən,
Diqqətləri cəlb edirik.
Zaman-zamana dönür,
Dinə-imana dönür,
Elə ki, həyat sönür,
Gözə ölüm görünür,
Ölümü dərk edirik.
O dünyaya xəbər
aparmamaq üçün,
Bu dünyadan susub
gedirik.

***2008.***

## YOLLAR BİZLƏ QEYB OLUR

Alçaqlıq - ucalıq var,
Ucalıqda qocalıq var.
Uzun-uzun yolların-
Sonunda haçalıq var.

***

Doğulandan yoldayıq,
Ömrümüz yolda itir.
Gediş-gəliş olmayan
Yollarda kol-kos bitir.

***

Doğulandan yoldayıq
Yollar bizlə doğulur.
Bizlə doğulan yollar,
Bizimlə də qeyb olur.

***2008.***

## SƏSDƏN TUTUB - SÖZƏ GEDİRƏM

Düşüb yolun ağına,
Baxmadan sol-sağına,
Səsdən tutub
sözə gedirəm, -
Uça-uça, qaça-qaça
üzə-üzə gedirəm,
Bir ilahi səs aparır,
Bir ilahi sözə sarı.
Söz məni gözləyir -
Açıqdır qapıları.
Səsdən tutub sözə gedirəm,
Uça-uça, qaça-qaça,
üzə-üzə gedirəm,
Bu yol - çox çətin yoldur;
Səsin əlindən tutub,
Çətinliyə, dərinliyə
varıram, -
İlahi sözü axtarıram.

***2008.***

## TANRININ İZİ VAR

Hər yanda,
Hər yerdə, -
Səsdə, sözdə,
Şeirdə
Açıq-aşkar
Tanrının izi var.

## ƏMƏLLƏRİN CƏZASI - QULANI KƏRİMDƏN-AYƏ

1: Allah
bəndələrini
cəzalandırmır,
Bəndələri
öz əməlləri
cəzalandırır.

2: Pis törəmə,
Pis əməllərin -
məntiqi -
nəticəsidir.

***2008.***

## GETDİK YALANA DOĞRU

Gəldik yalan dünyaya,
Getdik yalana doğru.
Yaşadıq, işlədik
bu günə kimi,
ürəklər arzuyla dolu.
Kimi azdı, kim tapdı
getdiyi yolu.
İlahi!
Sən bizi yolunu azan,
Ona-buna quyu qazan,
İmansızdan, dinsizdən
qoru!
Tərbiyədən dərs deyən,
Tərbiyəsizdən qoru !

***2008.***

## GÖZÜ KÖLGƏLİ OLMA

Gözəl qız, - məsum gözəl,
Daha gözəl olmaq üçün,
Gözlərinə kölgə çək,
Kirpiklərinə - kirpik ək -
Gözəllikdə geri qalma.
Yaşa “aydan arı, sudan duru -
Köklü, kölgəli ol, -
“Gözükölgəli”
adı ləkəli olma.
Gözünü kölgədən,
Adını ləkədən qoru.

***2008.***

## QƏLƏM QOYMUR

Ahıl
Yazıçıları,
Pensiyaya çıxmağa,
Yazıçı aləmi,
Yazıçı qələmi
qoymur.
Yazı yazmaqdan
Yazıçı qələmi
doymur.

***2008.***

# FİRUZƏ MƏMMƏDLİYƏ

Bir işıqlı sözdən tutub, -
Özünü də, ətrafı da
İşıqlandırırsan.
Özün işıqçı olmasan da, -
Ürəklərdə işıq
Yandırırsan, -
Ürəkləri işıqlandırırsan.

***2009.***

## XOŞBƏXTLİYİMDƏN KEÇƏRƏM

Mən səni çox sevirəm,
Həya yolumu kəsib,
Sevdiyimi demirəm.
Bilsəm ki,
Sevdiyin  var,
Sevgilin var
Xoşbəxtliyin üçün mən,
Xoşbəxtliyimdən keçərəm.

## YAZIRAM

Bax, bu qələm
Bu da kağız, -
İndi yazmağa
hazıram.
Əvvəl söz kəşf edirəm, -
Sonra şeir yazıram.

## BADALAQ OLMASIN

Bir söz mən deyim,
Bir söz də sən de,
De, elə de,
Dediyimiz sözlər,
Şeirimizə, sözümüzə -
Özümüzə dayaq olsun -
Badalaq olmasın.

## DİLDƏN GƏLİR

Hər şey,
Yerdən gəlir,
Göydən gəlir, -
Obadan, eldən gəlir.
İnsanın başına
nə gəlir,
Dildən gəlir.

## QARA BÖCƏK

Hara uçur - uçsun,
Hara köçür - köçsün,
Qara böcək -
Dünyanın hər yerində
Peyin görəcək.

# ƏRİ SAXLAMAZ

Kişi arvadın dayağı,
Arvad kişinin işığıdır.
Kişi arvadın əl-ayağı,
Arvad kişinin yaraşığıdır.
Arvadı olmayan kişi,
Yar-yaraşıqdan düşər.
Əri olmayan arvad,
Gözdən, nəzərdən düşər,
Pendirini "dəri saxlamaz".
Arvad gözdən düşməsin, -
Düşdü - əri saxlamaz.

***2008.***

## ƏZİZİM FİRDOVSİ HƏKİMƏ

Sən Tanrıdan sonra
Xəstə insanların,
Ümid, nicat yerisən.
Sən, həm gözəl insan,
Həm də gözəl həkimsən.
Sən Hippokrat deyilsən,
Hippokrat andısan, -
Hippokrat kimisən.
Xəstələrin yanındasan.
Xəstələrin son nicat,
Son ümid yerisən, -
Son nicat, ümid ünvanısan.
Səndən o yana ümid yeri,
Nicat yeri yoxdur.
Canım doktor,
Gözüm doktor,
Sənsiz dərdə əlac yoxdur.
Sən ümid yeri, şəfa ocağısan
Həkim qardaş,
Həkim ata qucağısan.
Xəstələr dar ayaqda,
Dar gündə
Sənin üstünə qaçır.
Tutub Tanrı ətəyindən,

Sənə ümid edir,
Sənə ağız açır.
"Əl səndən, səbəb Allahdan"
deyir -
Həkim Cavanşirin
Həkim Firdovsi oğlu.
Tutmusunuz əlac etmək,
Şəfa vermək yolu.
Sən Hippokrat deyilsən,
Hippokrat andısan, -
Gecə-gündüz xəstələrin
Yanındasan.

***2007.***

# DONUB QALACAĞAM

Gəldim bu dünyaya,
İnsan oldum,
İnsanlara qovuşdum.
Bu dünyadan gedəndə,
Ölüm mələyinə tuş olacağam,
Ruh olacağam, quş olacağam,
Ona göydə qovuşub,
Od dünyaya uçacağam.
Adım da, soyadım da
Getdiyim günə ilişəcək,
Aya, ilə ilişəcək,
Orda tamam donacağam,
Donub, donub qalacağam.

***2008.***

## FƏRQİMİZ NƏDƏDİR

Bilmirəm,
fərqimiz nədir,
nədədir.
Bilmirəm,
başımda ildırım çaxır.
Mən gözələ baxıram,
Gözəl də sənə baxır.
Məni yandırır, yaxır,
Başımda ildırım çaxır.

# AĞRIYAN DİŞ OLAR

İşi görərsən, - iş olar,
Görməsən - keçmiş olar.
İşi görərsən - iş olar,
Əldə, dildə vərdiş olar.
İşi görərsən - iş olar,
Görməsən, ağrıyan diş olar.

***2008.***

# KİÇİK ŞEİRLƏR YAZIRAM

İstəyirsən inan,
İstəmirsən inanma, -
Qələmin ucuyla
Gor qazıram.
Həcmcə kiçik,
Məzmunca böyük
Şeirlər yazıram.

***2009.***

## LENTƏ YAZILMIŞ ÖMÜR

Ömür də təzə yazılmış
Maqnitofon lenti kimidir,
Hamı maraq göstərər ona.
Çalınar, oxunar
Yetişər sona,
Köhnələr,
Maraq azalar ona.

***2008.***

# VƏTƏN SİPƏRİ

Oğul - oğuldu,
Şəkərdi, noğuldu.
Oğul doğuldu -
Vətənə bəlgə,
Vətənə dayaq,
Vətənə çəpər,
Vətənə sipər
oldu.

## ŞEİR MƏNİ APARIR

Mən şeir yazanda,
Şeir də məni yazır,
Məni özü ilə aparır.
Mənim getmədiyim, -
Gedə bilmədiyim
Yerlərə,
Evlərə,
Məclislərə
Şeirlərim gedir, -
Şeirlərim məni -
Mənsiz
Aparır.

***2009.***

# AĞIL AYRI ŞEYDİR

Ağıl ayrı şeydir,
Savad ayrı şey, -
Savad alınar,
Ağıl alınmaz.
Ağıldan savad
Doğar, törəyər,
Savad ağıla
Qol-qanad verər.
Ağıl da savaddan
Fitrə, zəkat verər.

***2009.***

# SÖZ TUTDU MƏNİ

Dünyaya gəlmişdim,
söz tutam, -
Söz tutdu məni.

***

Ocaq çatdım, qaladım,
Başıma duz doladım,
Gizləndim, daldalandım,
Yaman göz tutdu məni.

***2009.***

## DƏLİ ELƏYİR

İnsanın başına
nə gəlir, -
Dili  eləyir.
Dil -
dil olmayanda -
İnsanı dəli eləyir.

***2009.***

## QARNI QƏNİM ÇIXIR

İnsan işləyir,
Gəlirli iş görür, -
Sevinir artan
Dövlətinə, varına.
Nəfsi, qarnı
qənim çıxır, -
Qazandıqlarına.

***2009.***

# İNDİ SAYANLARI SAYIRIQ

Bulananda duru sular,
Elin köçü geri döndü.
Bütün arıqlar, axsaqlar,
Birdən öndə göründü.
Vəzifəyə can atıb,
Kürsülərə süründü.
Beləcə bir-birinə
Qarışdı aləm,
Kükrədi, daşdı və
Yenidən barışdı aləm.
İndi-indi biz
göydə Allahın,
yerdə qanunların
ətəyindən tutmuşuq.
İndi-indi biz,
qorxunu, qorxaqlığı
unutmuşuq.
İndi-indi biz
demokratiyaya
addımlayırıq.
İndi-indi biz
sayanları sayırıq.

# OXU, BÜLBÜL, OXU

Sən məni gördün,
bu bağa döndün,
Başımın üstündə
budağa qondun, -
Yarpağa döndün,
Oxudun, öyündün.
Mən susdum,
Sən məndən küsdün.
Ay Allahın quşu,
Bunu yaxşı bil,
Şair-şairdir,
Xanəndə deyil.
Oxu, bülbül, oxu.

***

Hardan gəlib,
hara gedirsən,
Məni nəğmənə
qonaq edirsən.
Bağda bir mənəm,
Birdə ki, sən,
Oxu, bülbül, oxu.

***

Bu gün sənə tuş oldum,
Mən də dönüb quş oldum.
Səsindən sərxoş oldum.
Sən coşdun, mən də coşdum,
Sənə bir nəğmə qoşdum.
Oxu, bülbül, oxu.

***2008.***

## SÖZÜ ZAMANA TAPŞIRDIM

Ruhumu sözə tapşırdım,
Sözü zamana daha,
Zamanı tapşırdım
Yaradana, qurana.

***2008.***

## SEVMİRSƏN, SEVMƏ

Sevmirsən, sevmə,
Tale belədir - demə.
Nə danışdır, nə dindir,
Tanrı sevsə, bəsimdir.

***2007.***

## SÖZ KİMİNDİR?

Sözü dedin -
mənimdir,
Demədin -
sənindir.

***2009.***

## İŞIQLI SƏTİRLƏR

Nə tələsmişəm,
Nə gecikmişəm,
Allahın izniylə,
Vaxtında öz bürcümdən
Qopub düşmüşəm.

Nöqsanların, qüsurların
Ən yaxşı makiyajı - puldur.

Bilirsənmi pul necədir?
Pul-günahları gizlədən,
Cinayəti ört-basdır edən-
Qaranlıq bir gecədir.

Demə ki, sənə uzağam, yadam,
Sənin hikkələrinə dözür -
Yenə də dözəcək bu adam.

Ruh yarpaq təki qopdu köksündən,
Zaman, dalğa kimi keçdi üstündən.

***2008.***

## EHTİYAC GƏZDİRİR

İnsan bazara gedir,
Tənbəl-tənbəl
Bazarı gəzir.
Özü istəmir,
Ehtiyac əlindən tutub,
Bazarı gəzdirir.

***2008.***

## BİZ İNSANIQ

Biz insanıq,
İnsan olduğumuz üçün -
İstər ac olaq,
İstərsə tox,
Çətinlikləri,
Çətin işləri
dillə, sözlə
Həll etməliyik
Dişlə, caynaqla-
buynuzla yox.

***2007.***

# HƏR ÖLKƏDƏ VAR

Zərgər-şairlər,
Şair zərgərlər
Hər millətdə,
Hər dövlətdə var.
Söz-zərdir,
Şairlər zərgər,
Şairlər sözdən
Zər seçir.
Zərdən
Qoşmalar, gəraylılar
biçir
Şeir donunda,
Sevinc, kədər,
Qələbə ruhu
Yaşayır onda.
Misralar ucalan
Zəfər bayrağı,
Şeirlər
Süngüyə, bombaya dönər,
döyüş qabağı.

***2009.***

# VƏTƏN ANAMDIR MƏNİM

Bu dünyaya göz açanda
Mən anamı görmədim,
Vətəni gördüm.
Vətən məni bəslədi,
Layla dedi, səslədi,
Vətən anamdır mənim:
Öl desə, öləsiyəm.
Qal desə, qalasıyam, -
Mənim anam Vətəndir, -
Mən Vətənin balasıyam.

***2008.***

# VAXTINDAN ƏVVƏL QOCALDI ŞEİRİM

# VAXTINDAN ƏVVƏL QOCALDI ŞEİRİM

Canımda, qanımda
Oyandı şeirim,
Ürəyimin qanına
Boyandı şeirim.
Ruhumdan dünyaya,
Boylandı şeirim:
Gördü Yaxın Şərq
ölkələrində, -
Xeyir-şər məclislərində
Demokratiya, azadlıq
Pərdəsi altda
Böyük dövlətlərin,
Böyük ədalətsizliyini
Gördü azadlıq, demokratiya
Kölgəsi altda,
Bu təzadlı dünyada,
Törənən, törədilən
qəddarlığı,
Tərbiyəsizliyi,
Vaxtından əvvəl
Qocaldı şeirim.

***2009.***

***TANRI ƏDALƏTSİZ SUPER DÖVLƏTLƏRƏ ARAMSIZ-AMANSIZ DAĞIDICI QASIRĞALAR GÖNDƏRİR.***

*Qəşəm Çıraqlı*

## NUHUN TUFANI GƏLİB, NUHUN GƏMİSİ YOXDUR

İnsafdan, insanlıqdan uzaq,
Hikkəli, ədabaz insanlar,
Bədxah - yaramaz insanlar,
Göz görə-görə -
Ədalətsiz işlər görür -
Bu yer üzündə.
Kimisi heç baxmır
Yer üzündəki bu dəhşətli
Vurhavura, qırhaqıra, -
Kimisi də baxır, ancaq
Öz gözündəki tiri görmür,
Tük axtarır özgə dövlətlərin,
Millətlərin gözündə.
Nöqsan gəzir
Hər düz işində, sözündə.
Özü terror yuvası,
Özü cəza qamçısı,

Özü terror başçısı,
Oturub öz yuvasında,
Özü-özünü görmür, -
Özü-özünü axtarır
İraqda, Fələstində.

Tanrı göydən baxır,
Tanrı göydən görür, -
Belə super dövlətlərin
Törətdikləri
Haqsızlıqları, ədalətsizlikləri.
Qəzəblənir, qəzəbə gəlir, -
Qəzəbini qasırğaya döndərir
Ədalətsiz super dövlətlərə
Super qasırğalar göndərir.
Yer də, Göy də lərzəyə gəlir.
Bəlkə dünyanın sonudur,
Bəlkə Nuhun tufanı gəlib?!
Lakin, Nuhun gəmisi yoxdur, -
Bütün canlıları xilas edə.
Belə bir zamanda, qurunun oduna yaş da yanır.
Tanrının qəzəbi tutub, - torpaq da, daş da yanır.

***2008.***

## SÖZDƏ BOŞLUQ OLANDA

Gərək yüz yol ölçəm,
bir yol biçəm.
Hədləri, sədləri
vurub keçəm.
Bir misranı yazmağa,
Qalaq-qalaq söz seçəm.
Gərək sözləri, fikirləri,
Keçirəm xəlbirdən,
Keçirəm ələkdən.
Arxalı sözlər
axtaram, tapam.
Misralara
arxalı sözlər yapam, -
sözləri sıx-sıx düzəm,
sözdə boşluq qalmasın,
misrada boşluq yaranmasın.
Söz-sözə arxadır, dayaqdır,
Arxasız, dayaqsız misralar
Ayazdır - nə qışdır, nə yazdır.
Deyərlər: "ölüb,
ayaza qalıb."
Söz insana,
İnsan sözə arxadır.
Sözdə olan boşluqlar,

Misraları laxladır, -
Misralar da insanları
laxladır.
Sözdə olan boşluqlar
Qanunları laxladır,
Qanunlar da cəmiyyəti
Laxladır.

# ŞİRİN QƏLƏM, ACI QƏLƏM

Şirin qələm, acı qələm,
Qardaş qələm, bacı qələm,
Yazarların tacı qələm.
Dərdlərə dərman,
Müşkül işlərin
Əlacı qələm,
Söz yazar-baldan şirin,
Söz yazar-zəhərdən
acı, qələm.
Qardaş qələm, bacı
qələm.
Bütün münaqişələrin
Əlacı qələm.

***2007.***

## DEYİRLƏR

Deyirlər,
dəyirman bildiyini edir-
Çax-çax baş ağrıdır.
Bilmirlər ki,
Dəyirmanın çax-çaxla
İş birliyi vardır.
Gördükləri iş də
yarıbayarıdır.

***2009.***

# HAMIYA YUXARIDAN BAXDI

Hamıya yuxarıdan-aşağı
baxdı,
Öz saçını yolan adam.
Kiminə şər atdı,
Kiminə qara yaxdı,
Tək-tənha qalan adam.

***2008.***

# BU BORCLARIN ƏVƏZİ YOXDUR

İstər xeyir olsun,
İstərsə şər,
Borc verən,
Borc alanın
Sağlığını istər-
Verdiyi borc
İtməsin, batmasın
hədər.
Ancaq həyatda
Elə borclar da var,
Adi siyahıya düşmür,
Adi siyahıya sığışmır
Bu borclar.
Günahı var,
Savabı var,
Tanrıya çox yaxındır,
Savabı çox olanlar-
Günahsız insanlar.
Övladların-valideynlərə,
Valideynlərin-Tanrıya
Belə borcları çoxdur.
Bu dünyada da,
O dünyada da
Bu borcların
Əvəzi, fitrəsi
yoxdur.

***2008.***

## DÜZ SÖZ DE

Açdın ağzını, söz de,
Sözünü də, düz de.
Açma ağzını-
Qan qaraltmaq üçün,
Kimisə aldatmaq,
Kimisə qapmaq üçün.

## DEYƏ BİLMƏDİN

Bildiyimi-bilirəm,
Bilmədiyimi-öyrənirəm.
Sənin eşitmədiyini-eşidirəm,
Sənin görmədiyini-görürəm.
Demədiyini-deyirəm.
Sən sözü-söz kimi
tuta bilmədin.
Sən sözü-söz kimi
duya bilmədin.
Sözü öz yerinə
qoya bilmədin.
Sözün-söz yerini bilmədin,
Sözün-öz yerini bilmədin,
Söz quş olub uçdu əlindən.
Sözü-söz çəkisində,
Sözü öz çəkisində
Demədin - deyə bilmədin.

***2007.***

## EVİNDƏ DIĞ-DIĞDI

Çalışdı, vuruşdu,
Var-dövlət yığdı.
Var-dövlət üstündə
Evində hər gün,
Davadı, dığ-dığdı.
Bu dava,
Bu dığ-dığ
Onu yatağa yıxdı.
Var-dövlət ruha döndü,
Canından çıxdı.

# RƏSSAM, HEYKƏLTARAŞ, DAŞDÖYƏNMAHİR BƏYƏ

Əlin dəyən
daş çiçəkləyir.
Daş üzərində
insan çiçəkləyir,
Baş çiçəkləyir,
Üz çiçəkləyir,
Göz çiçəkləyir,
Qaş çiçəkləyir.
Görən insan,
baxan insan
Heyrətə gəlir.
Daş insanda,
insan daşda
Cana gəlir,
yaşayır.
Dünyasını dəyişəni
Qaytarırsan
bu dünyaya.
Daş üzərində
həyat puçurlayır,
İnsan pöhrələnir.
Özün itib batırsan
Bir ömürdə

neçə ömür yaşayırsan
Qəbr daşları arasında.
Ölülər arasından
diri çıxan sənətkar,
boynunda
O dünyanın bu dünyaca
Haqqı var.

***2008.***

# TƏRƏZİ

Satıcı daş seçdi,
Tərəzini tarazladı, -
Tərəzi sevindi,
Tarazlığa and içdi,
Satıcıdan keçdi,
Alıcını tutmadı.
Bir gözü alıcıda,
Bir gözü satıcıda,
Tanrıya bel bağladı -
Halallığı saxladı.

***2007.***

## HƏYAT MƏXFİ OYUNDU

Həyata gəlmək, -
Yaşamaq, ölmək, -
Məxfi oyundu.
Kimi gəldi, uddu,
Kimi gəldi, uduzdu.

***2008.***

# PƏRDƏLƏR

Pərdələr -
Pərdə-pərdə
Yerlə-göyün
Arasında var,
Ancaq gözə
Görünməz onlar.
Pərdələr -
Pərdə-pərdə
qalxar, enər.
Pərdələrdə -
Pərdə-pərdə muğam dinər,
Dinləyənlər
Sehrlənər.
Pərdələr -
Pərdə-pərdə
mahnıya dönər.
Simlər pərdələrdə
zilə qalxar,
bəmə enər,
Ürək pərdələrdə
Döyünər,
Pərdələrdə,
Pərdə-pərdə
Kədərlənər, sevinər.

Pərdələr
Böyük-kiçik arasında
abır-həya,
Pərdələr -
Sevgidə-ismət,
Dostluqda-hörmət,
Pərdənin qarası -
Nifrət-pərdəsi,
Nifaq-pərdəsi,
Yaltaq-pərdəsi,
Hiylə-pərdəsi.
Var qırmızı
Pərdə də -
Həqiqət pərdəsi...
Qaldırın qırmızı
pərdələri -
Dünya həqiqəti
bilməlidir.

***2008.***

## BU BAHAR DA

Bu bahar da,
torpaq möcüzə yaratdı,
Tumlar, puçurlar,
çadranı atdı.
Bu xəbər küləyə çatdı, -
Külək sevindi,
konsert yaratdı.
Qızlara gücü
çatmayan külək,
Gülləri, çiçəkləri,
kəpənəkləri
oynatdı.

***2008.***

# NƏ OXUSAN SƏNİNDİR

Bax, əzizim,
Bu kitablar,
Bu da sən
Oxu!
Nə oxusan
Səninindir.
Oxumadıqların
Müəlliflərindir.

***2009.***

# BELƏ-BELƏ İŞLƏR

Hər bir xoşbəxtlik -
Bədbəxtliyin üzərində
Bərqərar olur-oturur, -
Toy-busat qurur.
Bədbəxtliyin əsasında -
xoşbəxtlik,
Xoşbəxtliyin əsasında
Bədbəxtlik durur.

# ADINI, SOYADINI DANDI

Vicdan-vicdana gəldi,
Canlandı, cana gəldi,
Haqq, ədalət doğacağına,
Haqsızlığı boğacağına
Söz verdi, and içdi.
Böyüdü, şişdi qarnı,
Burnuna ilişdi qarnı.
Gücəndi, gücəndi
Gücü tükəndi, -
Haqq-ədalət doğa bilmədi,
Haqsızlığı boğa bilmədi.
Özü-öz adından utandı,
adını dəyişdi,
soyadını dandı.

***2007.***

## ŞİT OLMASIN DEYƏ

Nəğmələrim
şit olmasın deyə
Bir az duzunu artırmışam.
Canımdan - can verib,
Qanımdan - qan verib,
Qanıma batırmışam,
Söz olub, sözlərinə
Qatılmışam.

***2007.***

## QORXURAM

Özüm-özümdən qorxuram,
Bişməmiş sözümdən qorxuram.
Bişməmiş söz bir gəmi,
yoxdur sükanı, yelkəni.
Bişməmiş deyilən sözüm,
Bir gün dönər dar ağacına,
Misramdan asarlar məni.

***2008.***

# HƏYATDA BELƏ DƏ OLUR

1. Səni sevirəm, -
Vakant yerim yoxdu.

2. Demokratiya-güclülərin
Xeyrinə işləyən
Partiya.

3. Demokratiyaya aldandı, -
Qışda açıldı güllər,
Şaxta vurdu yandı,
Yandı korlandı güllər.

***2008.***

# ARILAR MƏNDƏN QAÇIR

Ay nənə,
Elə hey mənə
Şirin baladır,
Şirin baladır
deyirsən.
Şirinəmsə mən,
Niyə hər yerdə
Məni görəndə,
qanad açır,
Arılar, milçəklər uçur,
Məndən qaçır?

# TƏRS ÜZÜDÜR

1. Xoşbəxtlik-bədbəxtliyin,
Bədbəxtlik-xoşbəxtliyin
tərs üzüdür.

2. Bədbəxtliklə-xoşbəxtlik
Gecə-gündüz kimidir-
Biri gələndə
biri gedir.

***2007.***

## TELEFON KİTABÇAMDA

Telefon kitabçamda,
Yeni-yeni
Adlar, ünvanlar doğulur.
Yeni-yeni
Soyadlar doğulur.
Çoxlu dostlar, yadlar
doğulur.
Telefon kitabçam açılanda
Sevinirəm, qəmlənirəm, -
Haldan-hala düşürəm-
Hər gün,
olan, olmayan
Qohumlarla,
yadlarla,
dostlarla
görüşürəm.

***2009.***

# ÇOX ŞEY TƏSADÜFDƏN DOĞUR

Təsadüf
təsadüfən
Elə gətirər,
Torpaq sevinc də,
Qəm də bitirər.
Təsadüf
təsadüfən
Elə gətirər,
Bacadan, tavandan
Qızıl tökülər.
Təsadüf
təsadüfən
Elə gətirər,
Həyətin, həyatın
Oymaq-oymaq çökər,
Sökülər.

***2008.***

# ƏLİM GÖZƏLƏ, QƏZƏLƏ ÇATMIR

Dilim qəzələ yatmır,
Əlim gözələ çatmır.
Qəzəllə mənim aramda
bir varaq,
Gözəllə mənim aramda
Bir addım məsafə var.
İlahi, ilham ver,
Cəsarət ver
Qələmi işə salım,
Sözləri varağa yazım -
Bir addım atım
Dilim qəzələ yatsın,
Əlim gözələ çatsın.

***2008.***

# SÖZ DOĞULUR BÖYÜK SÖZ OLUR

Su-su daşından
damcı-damcı süzülür,
Kuzəyə -
Kuzə dolur.
Söz də ürəkdən
heca-heca süzülür,
Süzülür -
Kağız üstdə
Söz doğulur-böyüyür, -
Böyük SÖZ olur.

***2007.***

## DEMƏK, SEVİRSƏN

Sən onu - sevgilini
Pisləyə-pisləyə
sevirsən.
Hirslənib, tüstüyə,
hisə verib
sevirsən,
Sevgi-sevgidirsə,

Xoş olur anlar,
xoş olur məqamlar.
İstər elə sev,
İstər belə sev,
İstər ölə-ölə sev,
İstər gülə-gülə sev,
demək sevirsən.
Sevdiyin üçün də
Şıltaqlıq edirsən.

***2008.***

# ÖZÜMƏ QƏSD ETMİŞƏM

İndi dərk etmişəm,
İndi bilmişəm -
Qələm məndən küsməyib,
Mən qələmdən küsmüşəm.
Qələmdən küsməklə mən,
Özümə qəsd etmişəm.
İşığa həsrət qalan,
Ürəyimə toplanan,
Köksümdə tufan salan
Sözümə qəsd etmişəm.

***2008.***

## DEYƏ BİLMƏDİN

Bildiyimi-bilirəm,
Bilmədiyimi-öyrənirəm.
Sənin eşitmədiyini-eşidirəm,
Sənin görmədiyini-görürəm.
Demədiyini-deyirəm.
Sən sözü-söz kimi
tuta bilmədin,
Sən sözü-söz kimi
duya bilmədin
Sözü öz yerinə
qoya bilmədin,
Sözün-söz yerini bilmədin,
Sözün-öz yerini bilmədin,
Söz quş olub uçdu əlindən.
Sözü-söz çəkisində,
Sözü-öz çəkisində
Demədin, deyə bilmədin.

***2007.***

# BİZİ ALLAH QORUSUN

Allah bizi,
Tərbiyədən
dərs deyən,
Tərbiyəsizlərdən
qorusun.

***2008.***

## CƏLLADI EDAM EDƏN

Hirsli qadın ərinə:
- Allah səni mənə
ər yox, cəllad
göndərib.
Hirslənmiş kişi:
- Səni isə mənə,
Cəlladı edam edən
Arvad göndərib.

## DEMƏ

Sənə qurban olum, demə,
Bəs mənim qeydimə
Kim qalacaqdır?
Sən mənim eşqimə
Qurban gedən gün,
Sevgim də, eşqim də
Yetim qalacaqdır.

## TEZ QOCALIR

Qadınların
əli, baldırı
tez qocalır.
Kişilərin
beli-andırı
tez qocalır.

***2008.***

# ÖZ PRİZMANDAN BAXIRAM

Hər kəsin bu dünyada
Öz baxış bucağı,
Öz baxış prizması var;
Öz prizmasından
Dünyaya baxar.
Düşər söz axarına,
Düşər öz axarına,
Özündən çıxar,
Dünyaya axar.
Kimi haqqa axar, -
Kimi haqdan axar.

***2007.***

## GEDİRƏM DEDİM

Hirslənib
Gedirəm- deyirəm.
dilim deyir,
Ayaqlarım
danışmır, dinmir,
Mən getmək istəsəm də,
Ayaqlarım getmək istəmir.
Sən də hirslənib,
Gedirsən-get!- dedin.
Dilin get- dedi
Enən kirpiklərin,
Kirpik arxasınadn
baxan gözlərin
Otur hələ,
səbr elə,
Lənət şeytana
de-deyir.
Gözlərin getməyimi
istəmir.
Ayrılmaq sözünü,
Şeytan ortaya saldı.
Aramızda narazılıq
yaratdı.
Doğmalar kövrəldi,

Vicdan dilə gəldi,
Dalaşıb-barışmaq əsil həyatdı -
Barışanlar səadətə çatdı.
Gərək səndə səbr ola,
Ürəkdə qalmasın
Nə qəzəb, nə də ki, kin,
Qəzəbdən mən çəkindim,
Əzizim, sən də çəkin.

# ÇOX YAŞAYAN, ÇOX BİLƏR

Alimlərin dediyi,
Qlobal istiləşmələrə
Dünyada baş verən,
dəyişmələrə,
pisləşmələrə
İnanmayın, insanlar!
Qorxmayın, insanlar!
Axı, hər əlli ildən,
Yüz ildən bir,
Bəzən də min ildən bir
Dünyada
Qabarmalar, çəkilmələr,
Soyuqlaşmalar,
İstiləşmələr -
Olub, olur, olacaq.
Dünya, təbiət, kainat,
Kainatda həyat
Öz varlığını, tarazlığını
Qoruyub, qoruyur, qoruyacaq.
Alim-alimdir, qardaş
Bildiyini, öyrəndiyini
çalışır yazsın, desin,
Alim Tanrı deyil ki,

çox yaşasın, çox bilsin.
Alimlər,
Tanrı bildiklərini bilmir,
çox halda
çaşıb qalırlar.
Qlobal istiləşmələr
Baş verir deyib,
Hay-küy salırlar.
Axı alim yazıq nə desin,
Tanrı qədər yaşamır ki,
TANRI qədər çox bilsin.

***2007.***

## ÖZÜM-ÖZÜMÜ ALDADIRAM

Əlimə almışam qələm,
Sözdən-söz seçəm,
Sözdən-söz dərəm, -
Sözdən-söz dərmək olmur.
Sözü-sözlə bəzəmək olmur, -
Bəzəkdə aciz qalıram.
Baxıram-görəm-görmürəm, -
Gözümü aldadıram
Özüm-özümü aldadıram.

***

Elə ki, dan atır,
Günü-gün,
Günü saatlar qovur,
Qovur-gün batır.
İnsanlar çox yorulub,
İnsanlar yıxılıb-yatır.
Ay Allah,
gecəyə darımı səpdin -
Ulduzların
necə də çoxdur.
Səsimə-səs verən,
məni dinləyən, eşidən
yoxdur.

Qələmdir, mənəm, bir də ki,
Kar, lal gecə
Yuxusu şirin,
Yuxusu bal gecə.
Bəs bu gecə nə yazmışam?
Xəyallar qoynunda azmışam.
Özüm-özümü aldatmışam.

***2007.***

# SƏN ZAMANIN GÖZÜNƏ BAX

Olmadı elə,
Oldu belə -
Barış taleyinlə,
Qarşıla, görüş taleyinlə
Görüş gülə-gülə.
Zamanı dərk etmək üçün,
Güc toplayıb ayağa qalx,
Sən zamanın gözünə bax,
Kini, hikkəni unut,
İkiəlli nəbzini tut.
Zaman-zamandır,
Yaxşıdır, yamandır, -
Axıb gələcək, -
Gəlib səndən keçəcək, -
Gah sakit gələcək
Gah çaxıb gələcək,
Öz sözünü deyəcək,
Öz hökmünü verəcək.
Zaman-zamandır,
İşi rəvandır,
Hökmü yamandır,
Gözaltısı insandır,
Üst-başını didəcək,
Xəbərin olmadan səni

Hissə-hissə sökəcək.
İstəyirsən, yerə gir,
İstəyirsən, göyə çıx,
Zaman səni tapacaq, -
Verdiyini alacaq,
Səni lüt-üryan qoyacaq,
Lüt də yola salacaq.
Yenə əvvəlki təmtəraqla,
Yenə əvvəlki bərbəzəklə,
Yenə əvvəlki duz-çörəklə,
Dünya-dünyalığında,
Zaman-zamanlığında
Qalacaq.

***2007.***

# ATIB GEDİRƏM

Ömrümü çiynimə atıb gedirəm,
Ayları illərə qatıb gedirəm.
Neynək, mən də belə itib gedirəm,
Dünya, məni bağışla,
Verdiyin dərdlərə
batıb gedirəm,
Sənə
Ömrümü, günümü
Satıb gedirəm,
Dünya, məni bağışla.

***2008.***

# UZUN ÖMRÜN OYAQ ÇAĞI, VACİB ÇAĞI

Mən bilən
Mənim üçün
Uzun ömrün
Ən oyaq çağı
Gecə saat üçdən,
Beşə kimidir.
Ən vacib
Çağı isə,
Səhər saat beşdən
Doğan Günəşə
kimidir.

***2008***

## İNSANLARDAN YAXŞI BİLİR

Hər şey
Öz yerini, yolunu
Bilir-
Quşlar da,
Həşəratlar da,
Heyvanlar da
Necə yaşamağın,
Necə dolanmağın, -
Qışda harda qalmağın,
Yayda harda olmağın
yolunu
İnsanlardan
yaxşı bilir.
Hər yerdə,
Hər zaman
Sevir, sevilir-
sevinir.

***2008.***

***“Arvadı əri saxlar,***
***Pendiri dəri saxlar”***

## ATALAR SÖZÜ

Ər gözdən, hörmətdən düşüb,
Arvadı saxlamır, BABA
Dəri köhnəlib, əldən düşüb, -
Pendiri saxlamır, BABA.

***2009.***

# ÖZÜMÜZÜ NAZA QOYMUŞUQ

Dünya yaranan gündən,
Gah çox isti olub,
Gah da ki, çox soyuq.
Yerdən olub, göydən olub.
Nə olub, əvvəldən olub,
Tanrı yaradan gündən olub, -
Təməlini belə qoyub.
İsti olub ərimişik,
Soyuq olub donmuşuq, -
Özümüzü naza qoymuşuq.

***2007.***

## DEMƏ Kİ, SƏNƏ YADAM

Demə ki,
Sənə uzağam, yadam
Sənin hikkələrinə,
Ədalarına dözən,
Dərdinə qalan,
Səbrli, təmkinli
Məhrəm adamam.

# TÜLKÜ

Tülkü-tülküdür,
Tülkü-hiyləgər
bir heyvandır.
Hamı bilir
Tülkü-tülkülükdə
necədir, nədir.
Tülkünün-tülkülüyü
tülkülər üçün
Bir nümunədir.

***2007.***

# DEMOKRATİYA

Demokratiya-
Güclərin-
Güclülərin
Xeyrinə-Şərinə
İşləyən mexanizmdir.

***2008.***

## UŞAQ

Uşaq hikkədən, hirsdən
Yanır, ağlayır.
Nəyi itirdi,
nəyi tapdı -
anır ağlayır.
Uşağın - uşaq sirri var,
Heç kəsə demir, -
danır-ağlayır.

***2008.***

# YAXŞI MƏQAM, PİS MƏQAM

İnsan,
daxilində həm işıq,
Həm də qaranlıq olan
Yeganə məxluqdur.
İnsan daxilində
Qaranlıqda işıq,
Xeyirlə şər
Baş-başa yatır.
İnsan taleyinə
Bürclər də göydən
əl atır.
Ona görə insanda
Həm pis,
Həm də yaxşı hallar
Tez-tez olur.
Bürclərin məqamı
xoş olanda
İnsan, insana layiq
işlər görür,
Sevinir, gülür,
güldürür.
Bürclərin məqamı
Pis gələndə,
insan-insanlıq
həddini aşır.
Fağır bir insan,
qəddarlaşıb da
İnsan öldürür.

***2008.***

# VAXTINDA TAPAR

Hər dövrün, zamanın
Özünə məxsus
Sualları var.
Elə zaman özü
Hər anın suallarının
Cavabın tapar.

***2008.***

## ELLƏR SƏNİ GÖZLƏYİR

Şair!
Ürəyin dürr yuvası,
Ağzın dəfinə odası,
Dilin xəzinə açarı.
Ellər səni gözləyir
Aç xəzinəni, payla varı!

***2008.***

## DİNCƏLƏCƏKSƏN

Sən aç gözlərini,
İnsanlara
İşıqlı gözlərlə bax,
İnsanların üzündə,
İnsanların gözündə,
Gözlərinin içində
Nur görəcəksən.
Özün də işığa bürünəcəksən,
Özün də işığa dönəcəksən.
Dünyaya işıqlı gözlərlə
baxdığın üçün,
Dünyanı gözəl görəcəksən,
İnsanı gözəl görəcəksən.
Düşəcəksən
Nurlu dünyada,
Nurlu insanlar arasına,
Dincələcəksən.

***2007.***

## SƏKSƏNİRƏM MƏN

Səhər tezdən,
Qəflətən çalınan
Telefon zəngindən
Səksənirəm, diksinirəm, -
Bəd xəbərdən -
Təhlükədən
Qorxuram mən.

## SÖZ ÜYÜDÜRƏM

Qeyri-adi
Bir dəyirmançıyam.
Gecə-gündüz
Söz üyüdürəm.
Söz almağa gələn kəs,
Söz almağa gəlmisən,
Səbr elə, döz
Üyüdürəm.

***2009.***

# MƏN BİLƏN

Vicdan-ruhun məhkəməsidir,
ittiham səsidir.
Vicdan həyatın, insanlığın
kompasıdır,
Ədalət, tarazlıq
Tərəzisidir.
Tanrının düzlüyə, tövbəyə
çağırış səsidir.
Günahların mühakiməsidir.

## MƏLƏK İNSANI QORUYUR

Hər insanın qəlbində,
Bir şeytan, bir mələk yatır.
Şeytan oyaq olanda,
İnsan fitvaya uyur,
Hirslənir, əl-qol atır,
Dava salır, ara qatır.
Mələk oyaq olanda,
İnsanı fitvadan qoruyur,
Ölümdən, qandan qoruyur.
Günaha batmaqdan qoruyur.
İnsan ALLAHA yaxın olur.

***2008.***

# HƏQİQƏT

Həqiqət - İnsan tərəfindən danılan, deyilməyən,
Zamanı gələndə torpaq altdan tapılmış
qızıl külçə kimidir.
Həqiqət - danılan, deyilməyən yer
İşıqları sönmüş küçə kimidir.

***2008.***

# UZAQ İDİK BİR-BİRİMİZDƏN

Nə qədər ki, uzaq idik
Bir-birimizdən,
Ay kimi, Gün kimi
Sirliydik, sehirliydik.
Görüşmək, sevişmək,
qovuşmaq yollarını
bilmirdik.
Elə ki,
sevişdik, qovuşduq,
Həsrəti-həsrətə
göndərdik.
Həsrəti
sevgiyə döndərdik, -
Sirr də itdi, sehr də
itdi.
Aramızdakı sevgidən,
Uşaqlar cücərdi,
Uşaqlar bitdi.
Ürəyə uşaq qayğısı
doldu,
Sevgi dünyası
Maraqsız oldu.

***2008.***

# HƏR ŞEY TƏSADÜFDƏN DOĞUR

## MƏDƏM, BEYNİM BİLİR

Saatın zəngi vurmadan,
Səhər tezdən dururam,
Tez saata baxıram, -
Artıq namaz vaxtıdır:
Tez dəstəmaz alıram,
Mən namaz qılıram.
Beynim, mədəm
Belə kodlaşıb, neynim:
Yeməyin vaxtını mədəm,
Namazın vaxtını
Beynim bilir.

# RƏHMƏT - HƏYATIN SON NÖQTƏSİDİR

İstər xeyir iş olsun,
İstərsə şər,
Başa çatar
Qurulan məclislər.
Mübarəklə
başlanan həyat
Rəhmətlə bitər.

***2009.***

# QORU ÜRƏYİNİ, QORU

Ürəyini zora saldın, -
Cismini gora saldın.
Dərdə, qəmə bax keçəri,
Dərdi salma içəri,
Get şənliyə, şadlığa
doğru,
qoru ürəyini, qoru.

***2009.***

# GÖRDÜKLƏRİMİZ, GÖZLƏDİKLƏRİMİZ, GÖRMƏK İSTƏDİKLƏRİMİZ

Gördüklərimiz, sevdiklərimiz -
Bizimdi, özümüzündü, -
Yar-yaraşığı gözümüzündü.
Gözlədiklərimizi - qarşılayırıq
alqışlayırıq.
Gecikənləri,
Bağışlayırıq.
Axı
Biz nəcib insanlarıq.
Görmək istədiklərimizin -
arzularımızın
İşığı uzaqda görünür,
Uzaqdan gəlir
İşığın-işığı hardan gəlir, -
Belə düşünərik,
belə dərk edərik,
İşığın - işığından
tutub,
Gələcəyə - haqqa doğru
gedərik.

# SÖZ MƏNİ TUTDU

Getdim söz məclisinə,
Söz tutam,
Söz məni tutdu.
Qoşuldum
çal-çağıra
Könlüm qəmi unutdu.

## ŞAİRLƏRİN BƏLƏDÇİLƏRİ

Şeirlər bələdçilik edir,
Şeirlər elçiliyə gedir,
Oxucuların əlindən
tutub
Şairlərlə-yazarlarla
tanış edir.
Müəllifi-müəllifdən
qabaq,
Oxucularla tanış
edir.

## SƏNİ SEVMƏMƏK OLMUR

Səni sevməmək olmur, -
Sənsiz yaşamaq, ölmək olmur.

Qiymətlisən, əzəmətlisən
Qədim xalçalar təki,
Qədim qalalar təki,
Görkəmlisən,
Gözəlsən, mərhəmətlisən:
Səndə
Gözəllik hikməti var.
Səndə mənlik qüdrəti var.
Səni sevməmək olmur.
Sənsiz yaşamaq da,
Ölmək də olmur.
Səndən əl çəkmək,
Səni tərk etmək olmur.

# KÜYƏ DÜŞÜB GƏLMİŞƏM

Bir gün
Məni - mən edən,
Məni-mənə göstərən
Bir alın yazısıyla,
Küyə düşmüşəm, -
Bu dünyaya gəlmişəm, -
Söz dalınca yol gedirəm,
Bildiyim sözləri demişəm,

Demədiyim sözləri-üyüdürəm:
Dəyirman da özüməm,
Dən də özüməm,

Çax-çax da özüməm, -
Hər gün işləyirəm,
Hər gün çaq-çuq edirəm, -
Hər gün söz üçün,
Özüm-özümə doğru
gedirəm.

***2009.***

# QƏŞƏM, FİRUZƏ
# SƏMİMİYYƏT

QƏŞƏM -
Canaxırdan Bakıya bir iz düşdü,
Şeirimizə işıq düşdü, köz düşdü,
Aralığa söhbət düşdü, söz düşdü.
Gözlərində mavilik var sərindi.

***

FİRUZƏ -
Bu iz hara çatacaqmış - nə bilim?!
Bu işıqmış, ya ocaqmış - nə bilim?!
Bu söz nədən sızacaqmış - nə bilim?!
Gözlərimin həyat rəngi sənindir.

***

QƏŞƏM -
İnamımı inamına caladım,
Sevincimi sevincinə qaladım.
Şübhələri, sərhədləri taladım,
Məhəbbətin kök salıbdır-dərindir.

***

FİRUZƏ -
Ömrüm-günüm, şübhələrin nahaqdır,

Qəlbim mənim dumduru bir bulaqdır.
Qısqanclıq var - məhəbbətə qonaqdır,
Məhəbbət var - qısqanclıqdan dəlidir.

***

QƏŞƏM -
Qəhər söz zövqünü sınadı,
Şübhələrdə öz-özünü qınadı.
Ürək var ki, məhəbbətdir qanadı,
Ürək var ki, sevməyə də ərindi.

***

FİRUZƏ -
Bu dünyanın narahatlıq yükləri
Elə məni qayğılarla yüklədi.
Kədər haçan FİRUZƏNİ təklədi,
QƏŞƏM-QƏHƏR gözlərinə göründü.

***1981-ci il BAKI.***

# HƏYATDA HƏR ŞEY OLUR

Xanəndə qız
Yandım-yandım, deyə
Haray çəkdi, səs saldı, -
Yanğınsöndürənlər
Eşitdi, - biganə qaldı.

***2008.***

# ÇOX FİKİR ETMƏ

İstəyirsən
Canı sağ olasan,
Kefi kök, damağı çağ olasan,
Heç kəsə qibtə eləmə,
Qeybət qırma.
Özün öz ömrünə zərbə vurma.
Çox fikir etmə,
Çox da dərinə getmə.
İki dəfə iki, dörd edəcək,
Hər şey
Öz yoluyla gedəcək.
Bu dünya,
bu tərəzi, bu da daş,
çox şeyə "eh"-lə yanaş, -
bu, həyatın sağlam olmağın
Həyat məntiqidir,
Şəfa mənbəyidir -
Ey əziz, mehriban qardaş.
Sən istəsən də, istəməsən də
Yaz yenə yazda gələcək,
Şaxtanı tapdayıb, ayazda gələcək
Ayazda da gül-çiçək bitirəcək.
Ağaclar bar gətirəcək,
Ağaclar bar verəcək.

Yenə dəryazlar ot biçəcək,
Baltalar ağac kəsəcək.
Uzun-uzun örkənlər,
Doğanaqdan keçəcək.
Çox fikir etmə,
Çox da dərinə getmə.
Fikir ömrü ömürdən alır,
İnsanı ağır dərdə salır.
Dərdin başlanğıcı fikirdi,
Fikrin əlacı səbrdi, zikrdi.
Götür təsbeh zikr et,
Üz tut Allaha doğru, get.
Kefin durulacaq, dərdin yox olacaq,
Ömrün də uzanacaq.

***2007.***

## YOL VERİN - YOLLARA

Yollara yol verin,
Yollar yolda yorulmasın.
Yollar yolda qalmasın.
Yollara yol verin,
Yollar yolsuz olmasın, -
Yollar ağsız-solsuz olmasın.
Yollar yolsuz olanda,
Yollar sağsız-solsuz olanda,
Gələn-gedən az olar,
Yollar yaramaz olar.
Yolları olmayan məkan
Gözəl olmaz, abad olmaz,
Yolları olmayan şəhərə -
Gedən gedər, gələn olmaz.

***2008.***

# BU DÜNYANIN «QARA» DAŞI GÖYƏRMƏZ

*Musa Yaqub*

Musa Yaqub:
Bu dünyanın
qara daşı göyərməz,
Ocaq daşı göyərər.
Baş-başa dayanan
ocaq daşları -
Əvvəl tüstü göyərdər,
Tüstünün içində
isti göyərdər.
İstinin içində
ocaq göyərdər.
Üç qara daş
Baş-başa versə, -
Ocağın üstündə
Sac göyərdər, -
Sac da çörək
göyərdər.

***2008.***

## QURDUN GÜNAHI YOXDUR

Arxalı köpəklər,
Qurd basır, -
Qurdu günakar
sayma, ey insan.
Vallah, belə dünyada,
Belə zamanda,
Qurd doğulmaq,
Qurd olmaq,
Qurd kimi yaşamaq
Deyil asan,
Ey insan.
Qurd nə qədər
Qurd olsa da,
Lap anadan
qurd doğulsa da,
Arxasızdırsa,
Qurd ola bilmir.

***2008.***

## UZAQ GÖRMƏYİN FƏSADI

Bizim xalq -
uzaqgörən xalqdı, -
Uzağı gördüyü üçün,
Ayağının altını eşən
Düşmənləri vaxtında
Görə bilmədi.
Sən də uzaqgörənsən,
Uzağı gördüyün üçün,
Burnunun ucunu
Görə bilmirsən.

***2007.***

# YAZ YAĞIŞI

Yaz yağışı -
Tanrının torpağa,
bərəkət duası,
sevgisi, alqışı.
Yağış yağır -
Yuxulu
güllərin, çiçəklərin
yanaqlarına.
Yağış yağır -
Yağışa həsrət,
Susuz torpağın
dodaqlarına.
İnsan həvəsi,
İnsan nəfəsi,
İnsan qayğısı,
sayğısı
İsidər torpağı,
Torpaq qayğılardan
barınar.
İnsan
Bar dərər,
Var götürər -
yarıyar.

***2007.***

# KODLAŞMIŞ XODLAR

Nə etmək olar,
Qardaşım, bacım,
İstəsən də,
İstəməsən də,
Sevsən də,
sevməsən də
Həyat belədir.
Özündə
qəm də yaşadır.
Sevinc də bitirir.
Nifrət də bitirir,
Şöhrət də bitirir.
Həyatın həyatda
Öz oyunları, oyunçuları,
Öz xodları var.
Hər xodun -
kodları var.
Yanıla-yanıla
öyrənir insan.
Öyrənə-öyrənə
Yanılır insan.
Yanlışlıq-həyatın
naxışıdır.

Yanlışlığı dərk etmək
Özü yetkinlikdir,
insana yaraşıqdır.
İnsan həyatının qaranlığından,
İnsan ömrünə düşən işıqdır.

***2008.***

# DEMƏYƏ SÖZ AXTARIRSAN

Kənddə, şəhərdə,
xeyirdə, şərdə,
Məclisdə, mərəkədə,
Danışmağa, deməyə,
Yenə söz axtarırsan,
yeni söz axtarırsan.
Söz-sözün içindədir, -
Əkindədir, biçindədir.
Yazda güldə, çiçəkdə,
Qışda şaxtada-qardadır,
İnsanlar hardadır-
Söz də ordadır.
Söz xalqın içindədir,
Söz tərəkəmə köçündədir.
Onu görən göz gərək,
Sözü sözlə bəzəməyə,
Aşıq gərək, saz gərək.

# YARPAQLAR

**1.** Bizim xalq - uzaqgörən xalqdır,
Uzaq gördüyü üçün
Yanındakıları görmür:
lap dahi ola...

**2.** Sən çox uzaqgörən insansan -
Ona görə burnunun ucunu görmürsən.

**3.** Sən baxanda, təkcə şəkilə baxma,
Şəkil səni aldada bilər.
Aldanmaq istəmirsənsə,
Gözlərin içinə bax.

**4.** Ölüm yaşamaqdan bahadır.

**5.** İnsan - öz imzasının əsiridir.

# SƏN BİLMİRSƏN

Sən hələ bilmirsən,
Səni necə sevirəm,
Ancaq sənə demirəm.
Bu sevgidən
sənin xəbərin yoxdur, -
olmayacaq da.
Şəklini asdığım yerə,
hər gün səcdəyə gəlirəm.
Sənə - şəklinə baxıram,
Baxışlarım
Şəklindən asılı qalıb, -
Səninsə xəbərin yoxdu.

***

Sənə olan bu sevgimin,
Həddi, hüdudu yoxdu, -
Sevinci, kədəri çoxdu.
Ürəyimdə yurd salıb, -
Əbədi qonaq qalıb, -
Səninsə xəbərin yoxdu.

## BAXDI YARIM

Əzizim, baxdı yarım,
Qismətdi, baxtdi yarım.
Döndü böyük sevgiyə,
Sinəmə axdı yarım.

***2006.***

## HƏRƏ BİR CÜR DƏLİDİR

Hərə bir cür dəlidir,
Kimisi ağlamalıdır,
Kimisi gülməlidir.
Dəli qoyun olmur,
quzu olmur -
Dəlinin buynuzu olmur,
Başında da ağac bitmir.
Dəli - elə dəlidir,
Dəli - belə dəlidir.
Kimi ağlanmalıdır,
Kimi gülməlidir.
Bax, gör, dərk et,
Sən yolunu düz get.
Əlidir, Vəlidir, Pirvəlidir,
Hərəsi bir cür dəlidir.
Dəli var, ağlayandır,
Dəli var, güləyəndir,
Əsl dəli-
gülə-gülə öləndir.
Dəlilər də bir cür ilandır,
Basdın quyruğunu - çalandır.
Sən dəliyə daş atma,
Dəlinin  dəliliyini oyatma.
Hərə bir cür dəlidir:

Məhəbbət dəlisi var,
Şöhrət dəlisi var,
Var-dövlət dəlisi var,
Saz dəlisi var,
Söz dəlisi var,
Hər millətin
Öz dəlisi var.
Dəli qoyun olmur, quzu olmur,
Dəlinin buynuzu olmur.

***2007.***

# BARIŞA BİLMƏRİK DAHA

Barışa bilmərik daha,
Görüşə bilmərik daha,
Ayrı dolan, ayrı get,
Tənhalığa adət et.
Birgə yaşamağa yerimiz yox
Birgə getməyə yolumuz yox,
Ayrıldıq, batdıq günaha,
Barışa bilmərik daha.
Daha odumuz, külümüz
ayrıldı,
Çiçəyimiz, gülümüz ayrıldı,
Yolumuz, izimiz ayrıldı,
Obamız, elimiz ayrıldı,
Ayrıldıq batdıq günaha,
Barışa bilmərik daha.

***

Qoşa getməyə yolumuz yoxdu,
Qoşa üzməyə gölümüz yoxdu,
Qoşa gəzməyə yerimiz yoxdu,
Qoşa uçmağa göyümüz yoxdu,
Ayrıldıq batdıq günaha,
Barışa bilmərik daha.

***

Belə ayırdı Tanrı yolu,
Ayrılığa çəkib qolu,
İtirmişik sağı, solu.
Ayrıldıq batdıq günaha,
Barışa bilmərik daha.
Qoşa qanad kimiydik,
Qoşa uçub gedirdik.
Dünyanı seyr edirdik,
Göz dəydi, qoşalığı itirdik
Ayrıldıq, batdıq günaha,
Qoşa uçmarıq daha.

# ÖZÜMƏ QAYTARIN MƏNİ

DEYİRDİK
Deyirdik-
qovuşarıq,
Xoşbəxt olarıq.
həyatın, dünyanın
gözəlliyindən
zövq alarıq.
Qovuşduq,
Ömür sürdük,
Dünyanın
hər üzünü gördük -
həyatdan, dünyadan
doymadıq.
Zaman keçdi,
Yaman keçdi
Aman vermədi,
Xoşbəxt olmadıq.

***2007.***

# NƏFS TOX OLMAYANDA

Nəfsi-iradə idarə edir,
Çox yerdə nəfsin əksinə gedir -
Onu cilovlayır,
Onu ram edir.
İradə nəfsə tuşlanmış oxdur,
O da hamıda yoxdur.
İradəsizlər daha çoxdur.
Hər kəsin özünə məxsus
Zövqü, nəfsi, nəfəsi var,
Hər kəsin sevib, sevilmək
Arzusu, istəyi, həvəsi var.
Nəfsi tox olanlar,
Sevgidə udar.
Torpaq günəşindir,
Torpaq suyundur,
Həyat bir səhnədir,
Ömür oyundur.
İnsan ki,
Öz nəfsini doyura bilmir,
O insan
İnsanlığını qoruya bilmir.

***2008.***

# QIŞ ÖMRÜMƏ BAHAR GƏTİR

Artıq payız olsa da,
Açan güllər solsa da,
Gözlərimdə bahar eşqi,
Sənə baxmaq istərəm.
Bir kuzə su olub
Ayaqlarına axmaq istərəm.
Könlüm eşqinə
əsir düşüb,
Əsim-əsim əsir.
Ürəyim
sənə doğru tələsir.
Qəlbim eşqinə çətir,
Sevgim şeirə dönür
sətir - sətir.
Yolunu gözləyirəm,
Gəl, gülüm, gəl, -
Qış ömrümə bahar gətir.

***2007.***

## SÖZ SÜZGƏSİ VAR

Şairin beynində
Bir söz süzgəci var.
Sözü - sözdən süzər,
Sözü-süzgəcdən süzər,
Misra-misra
kağıza düşər,
Misradan şeir alınar,
Şeirdə fikir alınar,
Fikirdən mütəfəkkir,
Duyğudan şair doğular.

# ÖZÜMƏ QAYTARIN MƏNİ

Gedirəm,
Yolu düz getmirəmsə,
Çalışın, düz yola
Qaytarın məni.
Düz yol mən özüməm,
Qoymayın, özümdən çıxam,
Özümə qaytarın məni,
Doğma tarıma, sazıma,
Sözümə qaytarın məni.
Qoymayın, qoymayın
Yolumdan çıxam,
Əslimdən, kökümdən,
Donumdan çıxam,
Qoymayın
Özüm özümdən çıxam.
Əslimə, kökümə,
Öz yoluma, öz donuma
Qaytarın məni.
Qoymayın özümdən çıxam -
Özümə qaytarın məni.

***2008.***

## DOLANA BİLSİNLƏR

Tanrı
Fərsiz qadını
Fərli kişiyə,
Fərsiz kişini
Fərli qadına
Qovuşdurur -
Sevinsinlər,
Gülsünlər,
Əl-ələ verib
Dolana bilsinlər.

***2008.***

## SAVAŞIN VAR
## DAVAKAR QADINA

Ev-eşik olmayıb yük,
Kür deyildir uşaqlar da.
Nəvazişin bircə üskük,
Ev dolusu savaşın var.

# BİR QAZANA SIĞIŞMAZ

1. Savadlı arvadla,
savadlı ər,
Bir qazana sığmayan,
İki kəlləyə bənzər.

2. Diqqətlə salanda nəzər,
Savadlı arvadla,
Savadlı ər,
Döyüşkən qoçlara bənzər.
Otlayar bir yerdə
Ayrı-ayrı gəzər.
Ayrı-ayrılıqda gəzər.

***2007.***

# ÇİYNİMİZDƏ DAŞIYAQ

Nə qədər ki, bu odun, bu ocaq,
Bu torpaqda yanacaq,
İgid oğullar doğulacaq, -
Bu torpaq VƏTƏN olacaq.
Gəlin daş üstə - daş qoyaq:
Vətən, yurd yolunda, -
Can qoyaq, baş qoyaq, -
Olaq Vətənə
dayaq.
Xeyrini, şərini
çiynimizdə daşıyaq.
Əl-ələ verib,
Çiyin çiyinə yaşayaq.
Ağ əlcəkdə,
Əllər cibdə
Daldada, kölgədə
Vətən-vətən deməklə,
Özümüzü öyməklə,
Sinəmizə döyməklə,
Vətəni öldürmək,
düşməni
Güldürmək olar.

***2007.***

## ZAMAN DA TƏZADLIDIR

Kim deyir,
Zaman təzadlı deyil?
Kim deyir zaman
Fəsadlı deyil?
Zamanın elə təzadlı
Zamanı var, zamanları var,
Ölülər
dirildilir aşkar,
Dirilər öldürülür
aşkar.

***2008.***

# PİLLƏ-PİLLƏ QALXIRAM

Pillə-pillə qalxıram,
Zirvədəki
Pillələrə baxanda
Yaman qorxuram,
Qorxuram
yorulub yolda qallam.
Pillə-pillə qalxıram,
Hər pillədə dayanıb,
Pillə-pillə dəyişən
Dünyamıza baxıram.
Pillələrlə
Bir ömürlük yükü -
İstəyimi, arzularımı
Vurub qoltuğuma,
Tövşəyə-tövşəyə
Yoxuşa- yuxarı aparıram.
Hər pillədə nəfəs dərib,
Öz üstümə qanad sərib,
İtdən, qurddan qorunuram.
Özüm-öz əlimdən tutub,
Öz qələmimdən tutub,
Özümü, -
deyilməmiş sözümü,

Pillələrlə
Yüksəklərə aparıram və
Qışqırıram:
-Eheyyy! İnsanlar, -
Mən də bu dünyada varam!
Sözümü deməyə
İmkan axtarıram,
Zaman axtarıram,
Məkan axtarıram.

***2009.***

# DEDİN TƏKLİKDƏ GÖRÜŞƏK, DANIŞAQ

Dedin təklikdə
Görüşək, danışaq -
Mənim işim sizinlədir.
Axı, təklikdə görüşmək,
Danışmaq
Nə yerdə, nə də göydə,
Mümkün deyildir.
Harda olsaq da,
Harda görüşsək də,
Tanrı da, mələklər də
Bizimlədir.

***2009.***

# SƏNİ SEVƏN DƏ OLAR, SEVMƏYƏN DƏ

Səni sevən də olar,
Sevməyən də olar.
Sənə nifrət
Edən də olar,
Etməyən də olar.
Sevgi-nifrət
Bir tərəzinin
İki gözüdür.
Gözlərdə sənin
Haqqın var.
Hansı gözə, nəyi
Çox qoysan
O da sənin
payın olar.

***2009.***

## ÖZÜNÜ DAHİ ELAN ETDİ

Çalışdı, ömrü boyu
Yazdı bir şeir.
Şeiri götürüb
Redaksiyaya getdi,
Redaktor şeiri
Çap etdi.
O, gündən harada oldu,
Hara getdi,
Özünü dahi elan etdi.

# ŞEİR MƏNİ APARIR

Qələm varaqda
İz salır -
İzə salıb
Şeir məni aparır.
Mən şeirdən, qələmdən
Uzaqlaşa bilmirəm.
Gözlərim qələmə,
İlişib qalıb.
Sözlərim qələmə
İlişib qalıb.
Masanın üstündə -
Ağ varaqlarda
Qələm məni
Əsir alıb.

***2009.***

# ŞEİR OXU

Bir neçə dəqiqəlik
vaxtından keç.
Yazılmış şeirləri oxu -
Yaxşı şeirləri seç.
Şeirlər də müxtəlif olur,
Nemətlər kimi -
Duzsuzu var,
Duzlusu var.
Dadlısı var,
Dadsızı var.
Şirini var,
Acısı var.
Oxu, seç barı,
Zövqünə uyğunları.
Qəmlənəndə,
şənlənəndə
Gərəyin olar.

***2009.***

# ŞAİR VAR

Şairlər
cürbəcür olur:
Şair var -
Qəm çəkir,
Şair var
həmdəm çəkir.
Şair də var,
Nə qəm çəkir,
Nə həndəm çəkir.
Oturur tək-tənha,
Araq vurur,
Gecənin qaranlığına
Turp əkir.

***2009.***

# DƏRK EDİRƏM

Şeir yazıram -
Nə yazdığımı
Dərk edirəm.
Şeir işıq saçır, -
İşıqdan tutub
gedirəm.

***2009.***

# İSTƏR UD, İSTƏRSƏ UDUZ

Həyat da,
məxfi bir oyundur -
İstər ud,
İstərsə uduz.
Ölüm bahadır,
yaşamaq ucuz.

## ÇİN OLMUR

İnsan çox şey
arzulayır.
Arzu -
arzu olaraq qalır
yerində.
Arzunun çin olmasına,
Nə Tanrı kömək edir,
Nə də ki, bəndə.

# TƏRCÜMƏ
# YAZIÇI-TƏRCÜMƏÇİ
# MƏMMƏD ORUCA

Dərdimə bax,
Dərdimin
Dərmanına bax:
Bir VƏTƏN oğlu,
Yad dildə yazır
əsərlərini.
Bir Vətən oğlu da,
Tərcümə edir
Ana dilinə:
Qaytarır
Vətən oğlunu,
Öz doğma VƏTƏNİNƏ,
Doğma elinə.

***2009.***

# HƏM BİLİRƏM,
# HƏM DƏ BİLMİRƏM

Sokrat, Ərəstun
Nə deyibdir,
Nə yazıbdır-
Həm bilirəm,
Həm də bilmirəm.
Bilsəm də,
Bilməsəm də
Dahiləri
sevirəm.

***2009.***

# DADI DAMAĞIMDADI

Bilmirəm,
Bilirsən, bilmirsən,
Ürəyim əlamandadır.
Gördüyümün,
Görüb daddığımın
dadı
Hələ  də damağımdadır.

***2009.***

## ŞEİR OLACAQDIR

Bir parça ağ kağız,
Bir də
Ucu şiş qələm,
Bir masa üstdə
Görüşə bilsə,
Öpüşə bilsə,
Görüşdən, öpüşdən
Yeni sözlər
doğulacaqdır -
Sözlər dönüb
Şeir olacaqdır.

## ALQIŞ

Təki arzumuz, istəyimiz
bir olsun !
Tanrı bizi arzumuza
Qovuşdursun!
Yaman gözdən,
Yaman sözdən
qorusun!

## DARIXMAZ

Sevən insan,
Sevilən insan,
Qaraya, ağa baxmaz,
Özgə al yanağa,
Bal dodağa baxmaz.
Ayı, ili xoş keçər,
Gecə-gündüz darıxmaz.

***2008.***

## İT İLİNDƏ

Keçdi günümüz
İt ilində,
İt ilimiz oldu.
İl - it ili oldu,
İt günü olmadı -
Döndü tarixə,
Düşdü arxivə.

## ÜRƏYİMCƏSƏN

Nəfəs dolu həyatsan,
Həyat dolu nəfəssən.
Hər nəsən, necəsən-
Mənim ürəyimcəsən.
Ürəyimcəsən -
Demək bəsimsən.

# MƏNİM İŞ SAATIM

Mənim həyatım -
Mənim vaxtım,
zamanım,
İş saatım.
İş - iş bilənin
Əlindən gəlir,
İş - iş bilməyənin
Dilindən,
Gözündən gəlir.

***2009.***

## BOŞ TƏKNƏDİR

Söz-şoular səhnədir,
Səhnələr boş təknədir.
Nə deyirlər, yalandır,
Nə deyirlər, köhnədir.

***2009.***

## QƏLƏM DÜŞÜNÜR

Ağ kağıza baş əyib,
Başını kağıza söykəyib
düşünür qələm.
Mən qələmin düşüncəsiyəm,
Qələm nə düşündüyünü
mən bilirəm.

***2009.***

## ŞEİRLƏR DEYƏCƏK

Şairlər iki cürdür:
Var- dövrün şairləri,
Var- gələcəyin şairləri.
Oxu, oxu, şairləri -
Kim-kimdir
Deyəcək- şeirləri.

***2009.***

## HƏYAT ÜÇÜN EYNİDİR

Küləyin, suyun işi,
Həyat üçün eynidir, -
Küləyə, suya tay hanı?
Su çirki aparır,
Külək çirkli havanı.

## ŞEİRDƏ HADİSƏ NƏDİR

Demirəm misralarım,
Şeirlərim hadisədir.
Mən hələ öyrənirəm,
Şeirdə hadisə nənədir.

***2009.***

# PEŞMAN OLACAQ

Allah xətirinə,
nə danış, nə din.
Mən sənin dilinə
Yaxşı bələdəm.
Danışsan, dinsən
**Sunami**
başlayacaq.
Qurunun oduna
yaş da yanacaq.
Açıq səmada
İldırım çaxacaq.
Danışan da,
Danışmayan da
Peşman olacaq.

***2009.***

## ŞEİR MƏNİ REKLAM EDİR

Mən şeir yazanda,
Şeir də məni yazır,
Məni reklam edir.
Mənim getmədiyim,
Gedə bilmədiyim
Yerlərə,
Evlərə,
Məclislərə
Şeirlərim gedir.
Şeirlərim məni -
Mənsiz
Reklam edir.

***2009.***

## TƏKRAR OLUR

Yer fırlanır,
Yerdə hər şey,
Göydə hər şey
Təkrar olur.
Hər gün, hər gün
Günəş göydə
Qızıl saçlarını
yolur.
Saçları Yerə
Hədiyyə olur.

# İNSAN ODLA SU ARASINDA YAŞAYIR

İnsan doğulanda,
Su  ilə doğulur-
Su bələdçi olur,
Su köməkçi olur,
İnsan doğulur,
Odla su arasında
olur.
Oddan suya,
Sudan oda
yol açır.
Yananda suya,
Donanda oda
qaçır.
Mayanı oddan alır,
Mayeni sudan -
Yaşayır insan.

***2008.***

## ÖZÜMƏ BAXMAĞIM GƏLİR

İlahi!
Gözlərim dincəlir,
Gözlərimə nur gəlir
Günəşi basdığın yerdən.
Özümə baxmağım gəlir
Ulduzları asdığın yerdən.

***2009.***

## HƏR KƏSİN ÖZÜNƏ BƏSDİR

Hər kəsin dərdi
Özünə bəsdi -
Heç kəsə
borc verməz,
Heç kəsdən
Borc almaz.
İnsan olan
Dərdsiz olmaz.

***2008.***

## KİTABIN İÇİNDƏKİLƏR

Bildim ki, bilmirəm ....................................................................................3
TƏXƏLLÜSÜ ŞEİRİNƏ İŞIQ SAÇIR... ..................................................................4

**TANRI YANIMIZDADIR ......................................................................9**

**ƏSGƏR, SƏNƏ YAXŞI YOL ......................................................................10**
**TANRI YANIMIZDADIR ......................................................................12**
**MƏNDƏN QOCA OLACAQ ......................................................................13**
**SÖZ KƏŞF EDİRƏM......................................................................14**
**İKİ KİTAB......................................................................15**
**DURNA QATARI ......................................................................16**
**BORC ALDIM ......................................................................17**
**QALMAYACAQ......................................................................18**
**AÇMASI - GÖYLƏRİNDİ ......................................................................19**
**HEYFİM GƏLİR ......................................................................20**
**HƏR ŞEYDƏ TANRININ İZİ VAR......................................................................21**
**TANRI SEVGİSİLƏ GEDİRİK ......................................................................22**
**MƏN DƏ BELƏ TACİRƏM......................................................................23**
**NƏ YATMISAN ......................................................................24**
**QAN PÜSKÜRƏN DAVAYA BAX ......................................................................25**
**YENİ ŞAİRLƏR DOĞULUR ......................................................................26**
**GÜLLƏ DƏYMƏZ, QILINC KƏSMƏZ SÖZÜM VAR ......................................27**
**ORDUMUZ QƏLƏBƏ ÇALACAQ ONDA......................................................................28**
**BİZƏ TƏN ÇIXAR......................................................................30**
**AĞSAQQAL ŞEİRLƏR YAZIRAM ......................................................................31**
**MƏN DƏ ELƏ MƏKTƏBLİYƏM......................................................................32**
**TANRIYA BAXIR ......................................................................33**
**ATSIZ TÜRK - TÜRK OLA BİLMƏZ ......................................................................34**
**GÖRƏN BİZƏ NƏ QALDI ......................................................................35**
**AXI YAZ GƏLİB ......................................................................36**
**QIFILLI SANDIQ......................................................................37**
**ŞAİR YENİDƏN DOĞULUR İMADƏDDİN NƏSİMİYƏ ..............................38**
**HƏR KƏSİN ÖZÜNƏ BƏSDİR ......................................................................39**
**VULKAN KİMİDİR......................................................................40**

**EVİMİZİ, DİLİMİZİ BƏZƏMİŞDİR** ........ **41**
**KÖRPƏ QUŞ KİMİYƏM** ........ **42**
**DAŞIYIRIQ PASPORT YERİNƏ** ........ **43**
**ALLAH YAXŞI BİLİR** ........ **44**
**YOLLAR-YOL VERİN** ........ **45**
**YOLLAR ÇİYNİNDƏ ÖTÜRÜR** ........ **46**
**DOLAŞIQ NAĞIL OLDU** ........ **47**
**ARAM-ARAM YAĞIRAM** ........ **48**
**SÖZ TEZ ÇATIR** ........ **49**
**GƏNƏŞİKLİ DON GEN OLAR** ........ **50**
**XAHİŞƏ, MİNNƏTƏ BAXMAZ** ........ **51**
**HƏYAT MƏXFİ OYUNDU** ........ **52**
**BÜRCLƏRİN ÜSTÜNDƏDİR TANRININ ƏLİ** ........ **53**
**QOBUSTANDA** ........ **54**
**SÖZ TAPA BİLMİRƏM** ........ **55**
**ƏLİMDƏN ASIRAM** ........ **56**
**ŞEİR YAZANDA** ........ **57**
**BAKI AXŞAMLARINDA** ........ **58**
**BAKI GÖYDƏLƏNLƏRİ** ........ **59**
**SÖZ QAZANI ASMIŞAM** ........ **60**
**DƏRD CÜCƏRİR** ........ **61**
**ÖZÜ GÖZƏ GÖRÜNMƏZ** ........ **62**
**DÜNYA QALMALI YERDİ** ........ **63**
**DÜNYA-DÜNYALIĞINDA QALACAQ** ........ **64**
**SÖZ YÜKSƏKDƏ DURUR** ........ **65**
**NƏĞMƏ KÖNLÜM SƏNİ İSTƏYİR** ........ **66**
**VAXTINDA DOĞULMUŞAM** ........ **68**
**RUHUMU ZAMANA TAPŞIRDIM ZAMANI ALLAHA** ........ **69**
**DÜNYAYA GÜLÜB GEDİRƏM** ........ **71**
**ÖZ GÖZÜMDƏN DÜŞÜRƏM** ........ **72**
**ÖLMƏK İSTƏMİR** ........ **73**
**HƏQİQƏT ARXİV SƏNƏDİDİR** ........ **74**
**DÜNYA NURA BOYANDI** ........ **75**
**QORUYAQ BARI** ........ **76**
**QOÇLARA BƏNZƏR ZARAFAT** ........ **77**
**NAXƏLƏF QƏLƏM** ........ **78**
**ƏLLƏRİM KÖMƏYƏ GƏLİR** ........ **79**
**GÜNAHLARI DAŞLAYIM** ........ **80**
**ZAMAN DALĞA-DALĞA KEÇƏR ÜSTÜNDƏN** ........ **81**

**BU SÖZÜ DEMƏ ........................................................................82**
**ENİŞƏ AXAR ........................................................................83**
**BÖYÜK YOLUN - YOLAĞASI ........................................................................84**
**ZƏRİF, ZƏİF=GÜCLÜLƏR........................................................................85**
**BEŞ YÜZ İL YOL GƏLƏN İŞIQ........................................................................87**
**QIRILDIM - DÜŞMƏDİM ........................................................................88**
**HEÇ NƏ GİZLİ QALMIR ........................................................................90**
**BAX - BAXIŞLARINA........................................................................91**
**EŞİTDİYİN - EŞİTDİYİN KİMİ QALSIN ........................................................................92**
**FİKİR DAĞDAN AĞIR GƏLƏR........................................................................93**
**XƏBƏR APARMAMAQ ÜÇÜN........................................................................94**
**YOLLAR BİZLƏ QEYB OLUR........................................................................95**
**SƏSDƏN TUTUB - SÖZƏ GEDİRƏM ........................................................................96**
**TANRININ İZİ VAR ........................................................................97**
**ƏMƏLLƏRİN CƏZASI - QULANI KƏRİMDƏN-AYƏ ........................................................................98**
**GETDİK YALANA DOĞRU........................................................................99**
**GÖZÜ KÖLGƏLİ OLMA........................................................................100**
**QƏLƏM QOYMUR........................................................................101**
**FİRUZƏ MƏMMƏDLİYƏ ........................................................................102**
**XOŞBƏXTLİYİMDƏN KEÇƏRƏM........................................................................103**
**YAZIRAM........................................................................104**
**BADALAQ OLMASIN........................................................................105**
**DİLDƏN GƏLİR ........................................................................106**
**QARA BÖCƏK........................................................................107**
**ƏRİ SAXLAMAZ........................................................................108**
**ƏZİZİM FİRDOVSİ HƏKİMƏ ........................................................................109**
**DONUB QALACAĞAM ........................................................................111**
**FƏRQİMİZ NƏDƏDİR........................................................................112**
**AĞRIYAN DİŞ OLAR........................................................................113**
**KİÇİK ŞEİRLƏR YAZIRAM........................................................................114**
**LENTƏ YAZILMIŞ ÖMÜR ........................................................................115**
**VƏTƏN SİPƏRİ........................................................................116**
**ŞEİR MƏNİ APARIR ........................................................................117**
**AĞIL AYRI ŞEYDİR........................................................................118**
**SÖZ TUTDU MƏNİ........................................................................119**
**DƏLİ ELƏYİR ........................................................................120**
**QARNI QƏNİM ÇIXIR........................................................................121**
**İNDİ SAYANLARI SAYIRIQ........................................................................122**
**OXU, BÜLBÜL, OXU ........................................................................123**

SÖZÜ ZAMANA TAPŞIRDIM....125
SEVMİRSƏN, SEVMƏ....126
SÖZ KİMİNDİR?....127
İŞIQLI SƏTİRLƏR....128
EHTİYAC GƏZDİRİR....129
BİZ İNSANIQ....130
HƏR ÖLKƏDƏ VAR....131
VƏTƏN ANAMDIR MƏNİM....132
VAXTINDAN ƏVVƏL QOCALDI ŞEİRİM....133
VAXTINDAN ƏVVƏL QOCALDI ŞEİRİM....134
*TANRI ƏDALƏTSİZ SUPER DÖVLƏTLƏRƏ ARAMSIZ-AMANSIZ DAĞIDICI QASIRĞALAR GÖNDƏRİR.*
*Qəşəm Çıraqlı*....135
NUHUN TUFANI GƏLİB,NUHUN GƏMİSİ YOXDUR....135
SÖZDƏ BOŞLUQ OLANDA....137
ŞİRİN QƏLƏM, ACI QƏLƏM....139
DEYİRLƏR....140
HAMIYA YUXARIDAN BAXDI....141
BU BORCLARIN ƏVƏZİ YOXDUR....142
DÜZ SÖZ DE....143
DEYƏ BİLMƏDİN....144
EVİNDƏ DIĞ-DIĞDI....145
RƏSSAM, HEYKƏLTARAŞ, DAŞDÖYƏNMAHİR BƏYƏ....146
TƏRƏZİ....148
HƏYAT MƏXFİ OYUNDU....149
PƏRDƏLƏR....150
BU BAHAR DA....152
NƏ OXUSAN SƏNİNDİR....153
BELƏ-BELƏ İŞLƏR....154
ADINI, SOYADINI DANDI....155
ŞİT OLMASIN DEYƏ....156
QORXURAM....157
HƏYATDA BELƏ DƏ OLUR....158
ARILAR MƏNDƏN QAÇIR....159
TƏRS ÜZÜDÜR....160
TELEFON KİTABÇAMDA....161
ÇOX ŞEY TƏSADÜFDƏN DOĞUR....162
ƏLİM GÖZƏLƏ, QƏZƏLƏ ÇATMIR....163
SÖZ DOĞULUR BÖYÜK SÖZ OLUR....164

**DEMƏK, SEVİRSƏN** ........ **165**
**ÖZÜMƏ QƏSD ETMİŞƏM** ........ **166**
**DEYƏ BİLMƏDİN** ........ **167**
**BİZİ ALLAH QORUSUN** ........ **168**
**CƏLLADI EDAM EDƏN** ........ **169**
**DEMƏ** ........ **170**
**TEZ QOCALIR** ........ **171**
**ÖZ PRİZMANDAN BAXIRAM** ........ **172**
**GEDİRƏM DEDİM** ........ **173**
**ÇOX YAŞAYAN, ÇOX BİLƏR** ........ **175**
**ÖZÜM-ÖZÜMÜ ALDADIRAM** ........ **177**
**SƏN ZAMANIN GÖZÜNƏ BAX** ........ **179**
**ATIB GEDİRƏM** ........ **181**
**UZUN ÖMRÜN OYAQ ÇAĞI, VACİB ÇAĞI** ........ **182**
**İNSANLARDAN YAXŞI BİLİR** ........ **183**
*"Arvadı əri saxlar,*
*Pendiri dəri saxlar"*
**ATALAR SÖZÜ** ........ **184**
**ÖZÜMÜZÜ NAZA QOYMUŞUQ** ........ **185**
**DEMƏ Kİ, SƏNƏ YADAM** ........ **186**
**TÜLKÜ** ........ **187**
**DEMOKRATİYA** ........ **188**
**UŞAQ** ........ **189**
**YAXŞI MƏQAM, PİS MƏQAM** ........ **190**
**VAXTINDA TAPAR** ........ **191**
**ELLƏR SƏNİ GÖZLƏYİR** ........ **192**
**DİNCƏLƏCƏKSƏN** ........ **193**
**SƏKSƏNİRƏM MƏN** ........ **194**
**SÖZ ÜYÜDÜRƏM** ........ **195**
**MƏN BİLƏN** ........ **196**
**MƏLƏK İNSANI QORUYUR** ........ **197**
**HƏQİQƏT** ........ **198**
**UZAQ İDİK BİR-BİRİMİZDƏN** ........ **199**

**HƏR ŞEY TƏSADÜFDƏN DOĞUR** ........ **201**

**MƏDƏM, BEYNİM BİLİR** ........ **202**
**RƏHMƏT - HƏYATIN SON NÖQTƏSİDİR** ........ **203**
**QORU ÜRƏYİNİ, QORU** ........ **204**

**GÖRDÜKLƏRİMİZ, GÖZLƏDİKLƏRİMİZ,**
**GÖRMƏK İSTƏDİKLƏRİMİZ** ............................................................ **205**
**SÖZ MƏNİ TUTDU** ............................................................ **206**
**ŞAİRLƏRİN BƏLƏDÇİLƏRİ** ............................................................ **207**
**SƏNİ SEVMƏMƏK OLMUR** ............................................................ **208**
**KÜYƏ DÜŞÜB GƏLMİŞƏM** ............................................................ **209**
**QƏŞƏM, FİRUZƏ SƏMİMİYYƏT** ............................................................ **210**
**HƏYATDA HƏR ŞEY OLUR** ............................................................ **212**
**ÇOX FİKİR ETMƏ** ............................................................ **213**
**YOL VERİN - YOLLARA** ............................................................ **215**
**BU DÜNYANIN «QARA» DAŞI GÖYƏRMƏZ**
***Musa Yaqub*** ............................................................ 216
**QURDUN GÜNAHI YOXDUR** ............................................................ **217**
**UZAQ GÖRMƏYİN FƏSADI** ............................................................ **218**
**YAZ YAĞIŞI** ............................................................ **219**
**KODLAŞMIŞ XODLAR** ............................................................ **220**
**DEMƏYƏ SÖZ AXTARIRSAN** ............................................................ **222**
**YARPAQLAR** ............................................................ **223**
**SƏN BİLMİRSƏN** ............................................................ **224**
**BAXDI YARIM** ............................................................ **225**
**HƏRƏ BİR CÜR DƏLİDİR** ............................................................ **226**
**BARIŞA BİLMƏRİK DAHA** ............................................................ **228**
**ÖZÜMƏ QAYTARIN MƏNİ** ............................................................ **230**
**NƏFS TOX OLMAYANDA** ............................................................ **231**
**QIŞ ÖMRÜMƏ BAHAR GƏTİR** ............................................................ **232**
**SÖZ SÜZGƏSİ VAR** ............................................................ **233**
**ÖZÜMƏ QAYTARIN MƏNİ** ............................................................ **234**
**DOLANA BİLSİNLƏR** ............................................................ **235**
**SAVAŞIN VAR DAVAKAR QADINA** ............................................................ **236**
**BİR QAZANA SIĞIŞMAZ** ............................................................ **237**
**ÇİYNİMİZDƏ DAŞIYAQ** ............................................................ **238**
**ZAMAN DA TƏZADLIDIR** ............................................................ **239**
**PİLLƏ-PİLLƏ QALXIRAM** ............................................................ **240**
**DEDİN TƏKLİKDƏ GÖRÜŞƏK, DANIŞAQ** ............................................................ **242**
**SƏNİ SEVƏN DƏ OLAR, SEVMƏYƏN DƏ** ............................................................ **243**
**ÖZÜNÜ DAHİ ELAN ETDİ** ............................................................ **244**
**ŞEİR MƏNİ APARIR** ............................................................ **245**
**ŞEİR OXU** ............................................................ **246**
**ŞAİR VAR** ............................................................ **247**

DƏRK EDİRƏM.....248
İSTƏR UD, İSTƏRSƏ UDUZ.....249
ÇİN OLMUR.....250
TƏRCÜMƏ YAZIÇI-TƏRCÜMƏÇİ MƏMMƏD ORUCA.....251
HƏM BİLİRƏM, HƏM DƏ BİLMİRƏM.....252
DADI DAMAĞIMDADI.....253
ŞEİR OLACAQDIR.....254
ALQIŞ.....255
DARIXMAZ.....256
İT İLİNDƏ.....257
ÜRƏYİMCƏSƏN.....258
MƏNİM İŞ SAATIM.....259
BOŞ TƏKNƏDİR.....260
QƏLƏM DÜŞÜNÜR.....261
ŞEİRLƏR DEYƏCƏK.....262
HƏYAT ÜÇÜN EYNİDİR.....263
ŞEİRDƏ HADİSƏ NƏDİR.....264
PEŞMAN OLACAQ.....265
ŞEİR MƏNİ REKLAM EDİR.....266
TƏKRAR OLUR.....267
İNSAN ODLA SU ARASINDA YAŞAYIR.....268
ÖZÜMƏ BAXMAĞIM GƏLİR.....269
HƏR KƏSİN ÖZÜNƏ BƏSDİR.....270

**QƏHRƏMANOV QƏŞƏM CAVAD oğlu**

# BİR İŞIQ UCUNDAN TUTUBGEDİRƏM

NƏŞRİYYAT DİREKTORU: Akif DƏNZİZADƏ,

TEXNİKİ REDAKTORU: Polad HÜSEYNOV,

KORREKTORU: Fəridə RƏHİMLİ,

OPERATORU: Ellada SƏFƏRƏLİYEVA,

Çapa imzalanmış 19.12.2009,
formatı 60x84 1/16,
fiziki ç.v. 15,75,
ofset kağızı №1, tayms qarnituru,
sifariş 59,
sayı 500.

Kitab
**"ÇİNAR-ÇAP"**
nəşriyyatında nəşrə hazırlanmış
və
ofset üsulu ilə çap olunmuşdur.

🖂 AZ 1025. Bakı şəhəri, Xocalı pr., 24.
☎ T/F.: **4989555, 4937255, 4902757**
**www.**chinar-chap.az
**E-mail:** office@chinar-chap.az